www.kitabxana.net
Milli Virtual-Elektron Kitabxana

“Dini bilgilər” silsiləsi. Elektron kitab. **N 18 (01 - 2018)**

Hacı Əlikrabm Ələkbərov

“Parol Tək Bir O!”

Dini kitab

Dini bilgilər kitabı

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSQ – 2018

01.03.2018
Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi (Qurumu)
www.yysq.kitabxana.net

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

“Dini bilgilər”

Elektron Kitab N 18 (01 - 2018)

Bu elektron Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin - http://www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxananın “Dini bilgilər” kulturoloji-elmi layihəsi çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi

http://www.yysq.kitabxana.net

Hacı Əlikram Ələkərov

"Parol Tək bir O!"

Dini kitab

Kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb. Bakı-2018

YYSİB və Milli Virtual-Elektron Kitabxananın e-nəşri

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov), yazıçı-kulturoloq

Tanrı, Din, Millət adına alverlərə son!

PAROL: TƏK BİR O

BƏŞƏRİ ETİRAF

ETİRAF VİCDANIN NƏĞMƏSİ NEYİ,
HƏR KƏSİN ÖZÜNDƏN ÖC ALMASIDIR,
GƏLBİN HƏM KİÇİLİB, HƏM BÖYÜMƏYİ,
İNSANIN ALÇALIB-UCALMASIDIR.

/ BƏXTİYAR VAHABZADƏ /

SÖZ VERİB SƏNƏ BU, MƏNƏ BU DÜNYA,
GƏRƏK GÜLÜSTANA DÖNƏ BU DÜNYA!
QƏDİM ZAMANLARDA SƏRHƏDSİZ İMİŞ,
SƏRHƏDSİZ OLACAQ YENƏ BU DÜNYA.

/ OKTAY RZA /

Dua: *Rəbbi, əgər mənim ölümüm yaxınlaşıbsa və yaxşı əməllərim yoxdursa, günahlarımı etiraf edirəm. Sənin əhv və lütfünü əldə etmək üçün məni bağışlamağını səndən diləyirəm.*

"Tək Bir O" *(Yaradanın bütün gözəl adlarının mənbəyi)* - nun və insanların qarşısında məsuliyyəti dərk edərək, dünyada bəşəri sülhün bərqərar olun-

meymundan yarandığını və başqa planetlərdən gəldiyini zənn edənlər də, hamı bir-birinə qohumdur).

Tək Bir O insanın sirridir, insan **Tək Bir O**-nun sirridir.

Tək Bir O əbədidir, insan fanidir. Gəlin bundan sonra bütün **O**-na inananları inanan adlandıraq, inanmayanları da Fondun Müzəffər formulunu və Bəşəri Etirafı qəbul edib, bir-birlərinə daha xoşməramla

DİQQƏT

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.

PAROL:
TƏK BİR O!

YYSİB – 2018

BAKI- 2014

PAROL: TƏK BİR O!

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014, 96 səh.

© 2014

TƏK BİR O!*

***Yaradanın bütün gözəl adlarının məcmusu**

Bagışlayan TƏK BİR O-nun adı ilə başlayıram!!!
və ondan bütün insanları bagışlamasını
diləyirəm.

Aləmlərin və elmlərin Rəbbi, xətadan, riyadan, inananların təmiz inanclarına zərərli olmaqdan hifz eləsin, Amin.

Bu fani dünyada yaşadığımız müddətdə ən böyük vəzifələrimizdən biri insanlar arasında sülhü, mehribanlığı, sevgini yaymaq, TƏK BİR O-nu sevib təslim olmağı təbliğ etməkdir.

Hədis: "Allah qatında elə bəndələr var ki, peyğəmbərlər və şəhidlər ona qibtə edir. Bu bəndələr insanlar arasında sevgi, mehribanlıq, sülh yaradanlardır.

"Yazmaq oxutmaq kimidir" sözü məşhurdur.

Ümid edirəm bu yazının yazılması oxuma səbəbinə vəsilə olacaq.

Oxuyanlar və oxunmasını tövsiyə edənlər də bu savaba ortaq olaraq, xeyirli bir iz qoyacaq. İmanla bu dünyadan ayrılıb TƏK BİR O-nun rəhmət və cəmalına qovuşmaq, hər bir inananın yeganə ən

böyük arzusu, qayəsidir. Bu qayəyə çatmaq üçün, bir birimizə dua etmək qardaşlıq vəzifəmizdir. Allahım, üzərimizə səbr yağdır və bizləri inananlar olaraq vəfat etdir! …razı olduğun, sevdiyin qulların siyahısına sal!

Rəvayət: İbadət vaxtı mürgüləyən bir kişini arxadan dümsükləyirlər, kişi gözlərini açır, bir azdan yenə yumur. Arxadakı adam …bir daha onu oyadır. 3-cü dəfə mürgüləyən zaman arxadakı adam təkrar onu oyatmaq istəyəndə, gözu yumulu halda, "bir də məni oyatsan – sənin Xızır (ə.s.) olduğunu hər kəsə deyərəm!" söyləyir.

Xızır (ə.s.) – heç kim onu tanımadığına görə Tək Bir O-nun verdiyi "dostları siyahısına" baxır və bu kişinin adının orada olmadığını görüb Tək Bir O-na deyir: "Sənin verdiyin dostlarının siyahısında bu kişinin adı yoxdur, bəs o, mənim Xızır olduğumu haradan bildi?"

TƏK BİR O cavabında: "Mən sənə Mən sevənlərin yox, Məni sevənlərin siyahısını vermişəm" deyir.

DİN NƏDİR?

DİN, TƏK BİR O-nun tərəfindən qoyulmuş BİR qanundur. İnsanları, öz arzuları ilə dini qəbul edən ağıl sahiblərini, xeyir işlərə sövq edir. İnsanlara …səadətin yollarını göstərir. Yaradılışlarındakı qayə və hədəfin – TƏK BİR O-na ibadət olduğunu bildirir.

Peyğəmbərlər TƏK BİR O-ndan, vəhy yolu ilə göndərilən, bu ilahi qanunları almışlar. Peyğəmbərlərin vəzifəsi: sadəcə bu ilahi qanunları insanlara təbliğ etməkdir.

İNSANLARA DİN NƏYƏ GÖRƏ LAZIMDIR?

Din, insanları uca qayələr ətrafında birləşdirən bir amildir.

Cəmiyyətləri yüksəldən və mədəniləşdirən bir müəssisədir.

Din əxlaqdır. Fəzilətdir. Ədalətdir.

Din, – vicdanları öz təsiri altına aldığına görə, insanları gizli və aşkar hər cür yaxşılıqlara təşviq edir. Din bəşəriyyətlə doğulmuş və onunla davam edəcəkdir.

Din duyğusu insanın yaradılışında mövcud bir həqiqətdir. İradəsi bütün mövcüdat üzərinə hakim olan TƏK BİR O-nun varlığını, xeyir ilə şərrin, fəzilət

ilə rəzalətin ayrı-ayrı şeylər olduğunu anlatmaq, insanlara məxsus ruhi və fitri bir keyfiyyətdir.

İnsan doğulanda bununla bərabər doğulmuşdur. İnsan nəfəs almağa möhtac olduğu kimi, inanmağa da möhtacdır.

İlk insan olan Adəm (ə.s.) eyni zamanda ilk peyğəmbərdir. Bəşəriyyətin başlanğıcı peyğəmbərlə olmuşdur, yəni birinci insan – birinci peyğəmbərdir. TƏK BİR O-nun ADƏMə (ə.s.) hər şeyi öyrətdiyinə görə, bəşəriyyətin başlanğıcında vəhşət yoxdur, …vəhşiləşən sonradan vəhşiləşmişdir.

İnsan insan olaraq, meymun da meymun olaraq yaradılmışdır.

Yuxarıda dediklərimizdən anlaşılır ki, TƏK BIR O olduğuna görə, din də birdir. TƏK BİR O-nun dini, TƏK BİR O-nun yolu, sevgi yolu, təslimiyyət yoludur! Peyğəmbərlərin yolundan ayrılanlar, batil dinlər meydana gətirmişlər. İnsanlar çox vaxt yalnız gördüklərinə inandıqlarına və qeybə inanmadıqlarına görə, TƏK BİR O-nu "görmədiklərinə" görə, şəklini beyinlərində təsəvvür etmədiklərinə görə, bütlərə sitayiş etmişlər.

Kimi ruha, kimi heyvana, kimi göyə, kimi aya, kimi günəşə, kimi ulduzlara, kimi oda, kimi də

ölülərin ruhlarına, hətta diri insana(!) sitayiş və ibadət ediblər.

Bizim məqsədimiz təsis etdiyimiz FONDUN adından bilinir: "İDEAL SÜLHÜN TƏBLİĞİ FONDU".

Biz deyirik: Hz. Adəm (ə.s.) və Hz. Həvvadan törədiklərinə inanan bütün insanlar – insan qardaşımızdırlar.

Meymundan əmələ gəldiyini düşünənlər də insana "döndüklərindən" və artıq insan sayıldıqlarından(!) yenə də insan qardaşımızdırlar.

Başqa planetdən gəldiklərinə inananlar da, eyni kökdən olduqlarına görə, bütün insanlar bir birinə qohumdurlar.

Bütün bu dediklərimizi "ADAM" jurnalı, "*SƏN yaradılmışların ən üstünüsən*!" kitabı, "*İnsan, İnsan!!!???... x*", "*Nə mutlu insanam deyə biləndə*" sənədli filmlərində daha ətraflı izah etmişik.

www.qalibsultanlar.com, youtube; Alikramful, Facebook; ALİKRAM AMİN

Altun çağın cocuqları, Qalib Sultanların himni, İDEAL SÜLH, "Deti zolotoqo veka", "Tək Bir yol var Onun yolu", "Mən fəxr edirəm ki, azərbaycanlıyam" adlı Fondumuzun tanıtım video-çarxlarında bu barədə bəhs edilir.

Fondumuzun Beynəlxalq Parlament mərkəzinin sülhsevər liderləri 2035-ci ildə sərhədsiz dünya quracaqlarını bəyan edirlər.

Sülhsever liderlər, – yəni QALİB SULTANLAR deyirlər: "*Nə vaxta qədər böyüklərin cinayətlərinə, cahilliyinə görə biz cavab verəcəyik? Buna "***Dayanın!***" deməyin vaxtı çatıb. Bu qədər böyük alimlər, siyasətçilər, din xadimləri, dahi şəxsiyyətlər, olduğu halda, niyə günahsız insanların qanı tökülür? Uşaqlar yetim qalır, terrorların, müharibələrin qarşısını ala bilmirlər*?"

Bəşər tarixi bütün fəlsəfələrin, qondarma dinlərin, sistemlərin boş və puç olduğunu göstərdi. Bəşəriyyətin yeni həm də köhnə fəlsəfəyə bu günkü qədər ehtiyacı olmamışdır.

Gəlin hamımız bir yerdə deyək: "*TƏK BİR O! – YOXDUR O-ndan başqası*!"

Bayaq qeyd etdiyim kimi, insanların bəziləri ancaq gördükləri və şəklini beyinlərində canlandıra bildikləri (saxta) Tanrılara inandıqlarına görə məhz bu problemlər ortaya çıxır.

Səsin, ağlın, ruhun, küləyin və s. artırmaq olar, olduğunun və şəklinin olmadığı hər kəsə bəllidir.

Eləcə də sevgi, namus, vicdan, ədalət, şərəf, qeyrət və s. sözlər vardır ki, bunların da şəkli yoxdur və bunlara hər kəs öz istədiyi kimi tərif verə bilər.

Ümumiyyətlə elə şeylər var ki, insan oğlu onu sözlə ifadə edə bilmir …edə bilsə də – hər kəsin qəbul edəcəyi bir tərifi bu vaxta qədər heç kim verə bilməyib.

Biz hələ maddəni/ruhu tam bilmədiyimiz halda …inadla cəhd edirik ki, TƏK BİR O-nu anlayaq və hər kəsə də biz anladığımız şəkildə O-nu qəbul etdirməyə çalışaq.

Gəlin bunun heç bir halda qəbulunun mümkün olmayacağını dərk edək.

İnsan oğlunun özü-özünü belə dərk etməyə aciz olduğu yaxşı məlumdur.

Haşiyə: İnsanda trilyonlarla hüceyrə mövcuddur və hər hüceyrənin 72 min funksiyası vardır.

1-dən – 1 milyarda qədər saymaq üçün isə …insana 165 il vaxt(!) tələb olunur.

Bütün bunlar "Müzəffər Formulu"nda daha ətraflı əks olunmuşdur.

TƏK BİR O insanları ən gözəl şəkildə yaratmışdır.

Sırf yaxşı və ya pis insan yoxdur. Yaxşı və ya pis əməl edən insan var. İnsanlar, yalnız etdikləri əməllərə görə(!) yaxşı və ya pis adlanırlar. İnsanların uşaqlıqda necə tərbiyə edilməsinin məsuliyyəti də əsasən valideyn və müəllimlərin(!) üzərinə düşür.

Ona görə də böyüklərin özləri, əgər dünyada sülhün bərqərar olmasını həqiqətən arzu edirlərsə, onların insanın yaradılışı haqqında bir ortaq məxrəcə gəlmələri mütləq vacibdir.

Qəribə də olsa, böyüklər də bunu, öz mənfəətlərinə görə, etmədiklərindən bu məsələnin həlli yolunu …"Altun Çağın Cocuqları" çox asanlıqla tapmışlar. Yaşadığımız bu keşməkeşli həyatda, insan mütləq surətdə, hər kəsə yaxşı olmaq istəsə də ola bilmir.

Məsələn, 1 hakim 2 nəfərdən birinə haqq qazandırırsa digəri haqsız görünəcək və "pis adamdır…" deyiləcək.

Məncə elə buna görə TƏK BİR O-nun dostlarından biri, dövrün xəlifəsinin bir şəhərdə qazi olmaq təklifini qəbul etməmişdir, zindanda 70 yaşında döyülərək öldürülmüşdür. Bizim qayəmiz, insanın ağlının, düşüncələrinin inkişafının nə dərəcədə irəli getməsindən asılı olmayaraq, inanmayan insanı bu dünyada, axirətə inananları – həm bu dünyada, həm də axirətdə səadətə qovuşdurmağa çalışmaqdır. İnsanlığın səadəti – şəxslərin səadətinə bağlı olduğundan, şəxslərin səadəti, eyni zamanda insanlığın səadətidir.

Bir də …məncə, insanların içində də öz doğmaları inanmayan olanlar da çoxdur və həm də əksinə. Ona görə də inananlar inanmayanların axirətdə nə edəcəklərini düşünüb onlara acısınlar, dua etsinlər.

İnanmayanlar da inananların bu dünyadan, onların fikrincə, istifadə etmədiklərinə acısınlar və onlara sataşıb lağa qoymasınlar.

Bu, demək olar ki, aşağı-yuxarı, dünyanın hər yerində belədir. Buna görə başqalarının haqlarına, malına, canına, namusuna təcavüz edilməsinə son qoyulmalıdır.

Həm də inananların nə ziyanı var? Axı onlar hər halda yaxşılığı təbliğ edirlər.

İnanan heç vaxt pis adam sayıla bilməz. Heç olmasa ən azı ondan ötrü ki, hər zaman TƏK BİR O tərəfindən nəzarət altında olduğunun bilincindədir.

Yalan danışmır, kimsəni qısqanmır, qonşularını incitmir, hər kəslə xoş keçinir, bacardığı və anladığı qədər yaxşılıq edir, şirin sözlü və adətən gülərüzlüdür.

İMAN

İman; bir şeyə tam olaraq ürəkdən inanmaq, xəbər verilən bir şeyi bir hökmü təsdiq etmək, onun doğru olduğunu qəbul edib, xəbər verənin doğru söylədiyinə inanmaqdır.

İmanın 1-ci şərti TƏK BİR O-na inanmaqdır.

Hər bir ağlı başında olan TƏK BİR O-nun varlığını, birliyini bilir ve O-na inanır. İNSAN əvvəl öz varlığından başlayaraq kainatın bütünü və bir də göylərdə və yerlərdə mövcud olan şeylərdən hər birini, bunların haradan və necə gəldiklərini diqqətlə düşündüyü zaman, öz dayaz ağlı ilə anlamadığına görə, bunların Yaradıcısının TƏK BİR O olduğunu qəbul etmək məcburiyyətindədir.

Kainatdakı hər zərrə, TƏK BİR O-nun varlığını və birliyini isbat edən bir dəlildir. Artıq təkəbbürlü elm də bunu təsdiq edir.

…Elm bir nöqtədir! Cahillər onu çoxaldıb. Lakin TƏK BİR O-nun zatını və mahiyyətini düşünə bilmədiyimizdən insanlar O-na müxtəlif adlar vermişlər. TƏK BİR O görəsən nə cürdür? O-nun görməsi, eşitməsi necədir?

Buna Ziya PAŞA gözəl cavab verir; *Idraki-məali bu kiçik ağla gərəkməz, Zira bu tərəzi …o qədər siqləti*(ağırlığı) *çəkməz.*

Nə qədər çalışsaq da bunu bilə bilmərik. Çaşarıq.

Bilgimiz və görüşümüz buna yetmir. Biz ancaq TƏK BİR O-nun varlığını bilib və O-nu adları ilə tanıyıb inanmalıyıq. Biz hələ ruhun sirrini də bilmirik. TƏK BİR O deməyimizin səbəbi heç olmasa inanan insanları bir ortaq fikrə gətirməyimiz üçündür.

TƏK BİR O-nun adları çox olduğundan, bütün gözəl adlar O-na məxsusdur;

…kim O-nu hansı adla çağırırsa, sevirsə, O-na ibadət və şükür edirsə, ümid bəsləyirsə, O-ndan qorxursa və s. …bu onun özünün qərar verdiyi məsələdir, necə düşünürsə qoy elə də etsin.

Çünki İNSAN - TƏK BİR O-nun sirridir. TƏK BİR O – İNSANIN sirridir!

Təkrar – "biliyin anasıdır". Xatırladırıq "MÜZƏFFƏR FORMULU"NDA bu mövzu daha geniş bəhs olunub.

İNAM

İNAM – şübhə oxlarının qalxanıdır. İnam - qaranlıqda işıq-nurdur, dərinliklərdən səmaya yoldur. İnamla yaşayanlar imanla nəfəs alır. Təkəbbürlü ağıl gücsüz olan yerdə TƏK BİR O-nun əbədi səsi imanla eşidilir. İşıqlı imanla qanadlanmış şəxs çalışmağa tələsir. İNAM – səma ilə yerin arasın-

da canlı körpü salır. İNAMLA - insan dəniz dalğaları üstündə gəzir.

İNAM - gücünü itirmiş mübarizlərə güc verir. İNAM -günahlarin hakimiyyətini dağıdır. İNAM - günahkarları xilas edir.

TƏK BİR O-nu sevirsənsə, inanırsansa O səninlədir. O səni heç vaxt tək qoymaz. Sən heç vaxt tək deyilsən! İnsan həyatı çox qısadır, anidir, ancaq insanda bir sərvət, xəzinə var olümsüzlüyə və TƏK BİR O-nun gücünə İNAM sənin vəziyyətin ağır olanda və gücün bitəndə, həyat sənə rahat olmayanda taleyə deyinmə, qəlbini və bədənini canlandıran sözləri yadına sal. Bizim axı TƏK BİR O-na ümidimiz var.

SADİQ DOST

Bizim pozulmuş dünyamızda sadiq dostlar çox azdır. Əgər sən sadiq dost olaraq O-nu seçsən O-nun sonsuz sevgisi ilə sadiq dost taparsan. O-nu axtarmaq asandır. O-nu tapmaq asandır. O ən yaxşı dostdur. Bəla gələndə kömək üçün O-dur. Bütün insanlara həyatın gözəl olduğu bəllidir. Yaradıcını TƏK BİR O-nu anlayanda həyat daha mənalı, daha

gözəl olur, məqsəd aydın olur, o zaman tam mənada yaşayırsan.

Sənin kədərində, qəmində və bədbəxtliyində, hər hansı mühitdə olursa olsun, nə qədər ağır günlər olursa olsun heç kimi təqsirkar bilmə. Unudulduğun vaxt, tək qaldığın vaxt, heç kimə lazım olmadığın zaman heç kimi təqsirkar bilmə, bu baş versə başqalarına nümunə olmaq üçün, əvvəl özünü təqsirkar bil.

İnsanlar zaman-zaman soyuq, xırdaçı qəddar olsalar da onları sev. Onları sev və öz arxanca apar, onları bağışla və onlara dua et, nəzakətlə qarşıla.

İnanan qəlb ilə sevmək – həyəcan vaxtı öz canına hayıfı gəlməyərək insanları xilas etməkdir. Sevən TƏK BİR O-nun ümidi ilə nəfəs alır. İnamsız dostluq, sevgi yoxdur. Yer kürəsi sonsuz …Kainatda bir zərrə kimi firlanır.

İnsanlar, gəlin əl-ələ verək, bir-birimizə gülümsəyək!

Bizim qələbəmiz TƏK BİR O-nunladır.

Dünyada çox yollar var ancaq TƏK BİR O-na güvənən əbədi yaşayacaq. TƏK BİR O-na inandığım üçün qəlbim işıqlı və alovludur.

Sevincdən sözüm yoxdur, hiss edirəm ki, şərrə qalib gəlirəm!

…Sənə çətin vaxtlarda, sevincli anlarında TƏK BİR O-nun sənə verdiyi hissləri unutma. Yaxşı əməllər et, şərr əməl etmə, böhtan atma, yalan danışma və içində böyük güc olan sözləri xatırla: "TƏK BİR O – Sevgi!" TƏK BİR O-nu dərk etməklə ucalıqlara can at SƏN hara tələsirsən? SƏNİ TƏK BİR O Yer üzünün xəlifəsi təyin edib. SƏN özünə hakim ola bilmirsən. Mən yarım həqiqət, yarım məqsəd, yarım iman istəmirəm.

Əgər sevirsənsə tam sev. Mənim qəlbimdəki sülh TƏK BİR O-nun sevgisindən gəlib, qəlbim bir arzu ilə yanır; "bədənim - məni" unutmaq.

Zəriflik səadətin yol yoldaşıdır. İşıqlı dalğa ilə qəlbə girir, böyük Günəşin kiçik hissəsi olur, soyuq isə bunları görübən varıb gedir. İnanmaq pisliyə-yaxşılıqla cavab verməkdir.

İnanmaq -TƏK BİR O-nun həqiqətini bilib, həyatın mahiyyətini bilərək, öz yolunla getməkdir. Biz həyatın verdiyi dərsləri, qınamaları qəbul edirik. Hər nə olubsa təsadüfi deyil, nə olacaqsa sirr ilə örtülüdür. Burada heç nə əbədi deyil. Şöhrət, şərəf, gözəllik, hamısı keçəcək əbədilik isə sonsuzdur.

TƏK BİR O həm yaxındadır həm də sonsuzluqda. O insana şah damarından yaxındır. O yerə göyə, asimana sığmır, inananın qəlbinə sığır. O hər zaman

böyük olub və əbədiyyən böyükdür, mən isə sadəcə …bir damlayam. Ölümdən qorxma! Məgər buğda və ya çovdar dənələri torpaq onlara məzar olanda qorxurlarmı? Çöllərin çiçək açması üçün təslim olaraq ölürlər.

Sevgi – sözsüz musiqi kimidir, qəlbin poeziyasıdır.

çox diqqət etməli olduğumuz bir məsələ var. TƏK BİR O-nun ortağı, bərabəri və bənzəri yoxdur. O-nun zatında sifətlərində, işlərində bir oxşayanı yoxdur. O-nun sifətləri də, işləri də zatına məxsusdur.

Məsələn; O-nun görməyi, eşitməyi, bilməyi, iradəsi və qüdrəti də zatı kimidir, özünə məxsusdur. Biz onların əslinə iman edir ancaq necə olduğuna dair bir söz deyə bilmərik. Bizim görüb-eşitməyimiz maddi alətlər vasitəsi ilədir.

TƏK BİR O isə zatı baxımından heç bir şeyə oxşamadığı kimi, sifətləri və işləri etibarı ilə də heç bir şeyə möhtac deyildir.

TƏK BİR O-nun zatı kimi sifətlərinin də ağıl ilə bilinməsinə imkan yoxdur. İnsanlarin elmləri buna kafi gəlməz. Öz mənliyini belə anlamağa aciz olan biz insanların TƏK BİR O-nun həqiqətini anlamağımız əlbəttə mümkün deyildir.

Bunlar da daha ətraflı "İNSAN, İNSAN – !!!, ???, ..., X-məchul" sənədli filmlərimizdə izah olunur.

TƏK BİR O-na inanmış və qəlbini ona sıx bağlamış olan bir insan, hüzur və səadətin zirvəsinə çatır. Bu insanın həyatı, yaşayışı, şərəf və əsalətin ən yüksək zirvəsinə çatır, onun nəzərində insanlıq və qardaşlıq dairəsi yer üzündə yaşayan bütün insanları içinə ala biləcək qədər genişdir.

Hər İNSANIN həyatı, namusu, malı, şərəfi, özü üçün möhtərəmdir. Belə bir inam, İNSANI hər cür pisliklərdən qoruyur və hətta pis fikirləşməyə imkan vermir. Hər elədiyi əməli və könlündən keçən hər şeyi bir GÖRƏN, EŞİDƏN və BİLƏN olduğunu və bunlardan bir gün imtahan verəcəyinə inanan olan bir İNSAN pisliyin hər cüründən daima uzaq olacaq.

Belə bir İNSAN heç bir insanın görmədiyi bir yerdə olsa da yenə əxlaqa yaraşmayan pis bir hərəkət etməz.

TƏK BİR O-nun varlığına tam inanan İNSAN insana şərəf verən bütün üstün sifətləri əldə etməyə çalışacaqdır. Ən yüksək qayələri əldə etmək uğrunda hər fədakarlığa sinə gərəcəkdir. Sadə yaşayacaqdır. Sadə həyat imandandır.

CAHİL ALİMLƏRİN ZƏRƏRİ

ALİMLƏRİN, DİN alimlərinin, şairlərin, yazıçıların bir sözlə xalqın içində sözü eşidilənlərin arasında vəzifə, maaş, şöhrət arzusunda olmayan adı inanan keçən, yalnız TƏK BİR O nun dos-doğru yoluna girənlərin sayının çoxalması üçün çalışan demək olar ki, yoxdur. Əgər olsaydı bəşəriyyət indiki vəziyyətdə olmazdı. Vəzifə sahibi olmaq arzusu ortaya gələndə, din adamlarının hər biri ayrı yol tutur və öz üstünlüklərini göstərmək istəyir. Bir-birinin sözünü bəyənmirlər.

Dövlət adamlarının gözünə girməyə çalışırlar. Keçmiş zamanlarda da insanların başına gələn çox bəlalar, din adamı adı ilə keçinənlərin ucbatından gəlmişdir.

İnsanların doğru yola gəlməsi və ya çıxması adətən (!)din adamlarının əlindədir. Bu adamların yaxşısı – insanların ən yaxşısıdır, pisi – ən pisidir.

Haşiyə: TƏK BİR O-nun dostlarından biri şeytanın boş oturduğunu görüb səbəbini soruşur. …Şeytan deyir ki, bu zamanın din adamları bizim işimizi tam görür, çalışmağımıza ehtiyac qalmayır; insanları həyatın əsl hədəfindən yayındır-

maq üçün, haqqdan uzaqlaşdırmaq, doğru yoldan çıxarmaq üçün bizim üçün heç iş qoymayırlar.

SEVMƏK TƏK BİR O-nun BÖYÜK SÖZÜDÜR!!!

SEVGİ! Kim bu müqəddəs sözün mənasını, mahiyyətini tam dərk edib? Sevmək - bu başqasının səadətinə, xoşbəxtliyinə özününkü kimi baxmaqdır. Sevmək-yaxınına, qardaşına və dostuna olduğu kimi onun dərdini, sevdiyin kəsin qəmini, ağrılarını, bölməkdir.

Dost olmayanla dost olmaq, təqsirkarları bağışlamaqdır, özündə nifrəti boğmaqdır.

Sevmək - insanların pisliyinə, kobudluqlarına, qüsurlarına, təəssüflə baxmaqdır!

Yolunu azanlara gözəl məsləhətlər verib qurtuluş yolunu azmışlara göstərməkdir.

SEVMƏK - başqasının səadəti naminə, özünün nail olmağa çalışdıqlarından (cəsarət tapıb) imtina etməkdir!

Bəşər övladına ömür sevmək üçün, ölçüsüz, sərhədsiz sevmək üçün verilib.

Bütün əzab çəkənlərə ağlımızı, biliyimizi həsr etmək üçün, alçaldılmışları, təhqir olunmuşları

sakitləşdirmək, qaranlıqla-yalanla sonunadək mübarizə aparmaq, qardaş qəlblərə TƏK BİR O-nun müqəddəs həqiqətini səpmək üçün (!)

HƏQİQƏT yəqin ki, ancaq ölçüsüz və sərhədsiz sevməkdir.

Sən ancaq TƏK BİR O-nu düşün! …Uğur qazananda da, itirəndə də, ancaq O-nun sevgisini tərənnüm et, səbr ve şükr et.

Bəlkə düşünürsən hələ gəncəm, qocalanda tövbə edib ibadətə başlaram. Sən nə bilirsən – bir an sonra nə olacaq?

Bəlkə səhər durub heç öz əzizlərini görə bilməyəcəksən?

Bəlkə səhər səni tabuta qoyub, vidalaşıb torpağa qoyacaqlar.

Bəs Ruhun nə edəcək?

TƏK BİR O – ölməyi, dünyanı dəyişməyi hər kəsə təyin edib. Sonra məhkəmədə sorgu-sual olunacaqsan. Tövbə et nə qədər qəlbində sevgi sağdır, yaşayır.

TƏK BİR O-nun çağırışına cavab ver və tövbə et və əbədi yaşa!

O-ndan uzaqda sən bədbəxtsən, həyatın mənasını görmürsən, bütün arzuların boş və mənasızdır.

O-ndan uzaqda yalnız cismani bədəni düşündüyün zaman ölüm ən qorxulu kabusdur sənin üçün! Öz boyatlaşmış, qatılaşmış, bəzən isə daşlaşmış, sümükləşmiş qəlbinlə ölümdə həyatın sonunu gğrürsən.

İnanan və sevən üçün isə ölüm sonsuz həyatdır…

TƏK BİR O – əgər ata-anan, dostların səndən üz çevirsələr, ittiham etsələr, sadiq dostun olaraq qalacaq. Əgər dost istəyirsənsə: TƏK BİR O yetər!

Qəmlənmə, üzülmə, unutma TƏK BİR O səni sevir. Sənin həyatını O idarə edir və müdafiəsini də O təşkil edir.

Sənə də səni səadətə-xoşbəxtliyə aparan nələri ya kimləri Özünün arzu etdiklərindən göndərir.

Bizim ömrümüz qısadır. Kölgə kimi, Günəş çıxan kimi yox olur. Çöl gülü kimidir, səhər açılır, axşam solur.

Bu dünya həyatı 2 qapılı gözləmə zalı kimidir.1 qapıdan girib – o birindən çıxırsan.

Mənim əziz yorulmuş, əzab çəkən dostum qardaşım!

Kim olursan ol... Ruhdan düşmə. VAXT gələcək – yer üzündə sevgi qələbə çalacaq, Xeyir şərə qalib

gələcək, göz yaşı ancaq sevinc göz yaşları olacaq, düşmənlik olmayacaq.

Əgər sən taleyindən razısansa, səadət dayanmadan gələcək, güclüsənsə başqaları üçün də dua et, xoşbəxtsənsə başqalarını da düşün.

Yaxınlar-uzaqlar üçün O-nu unudanlar üçün də dua et…

Duanın gücü rahatlıq gətirir. Dua – inananın silahıdır. Duanın gücü – qələbəyə zəmanətdir. Əgər duanla O-na yanaşarsansa, inan; sənin köməyinə gələcək **O!**

QALİB SULTANLAR QƏZETİ

Öyrədən, öyrənən, dinləyənlərin, Tək Bir O-nu sevənlərin, sevdirənlərin, asanlaşdıranların, Müzəffər formulunu qəbul edənlərin, Nəfsinə qalib gələn və gəlmək istəyində olanların, bir sözlə, kamilliyə can atan **qalib sultanların qəzeti.**

Əlikramdır – qalib sultanların xidmətçisi, ...Əlikram görünən! …sadəcə heç nə bilmədiyini bilən, yalnız TƏK BİR O-nun vüsalına möhtac Əlikram.

Sevin ki, seviləsiniz, mərhəmət göstərin ki, mərhəmət görəsiniz!

Elm Çində də olsa öyrən!

Alimin mürəkkəbi Hesab günündə şəhidin qanından ağır gələr.

Bir saat elmlə məşğul olmaq 60-illik nafilə ibadətdən üstündür.

Amma o da var ki: qürurlu elm sevgi, eşq, məhəbbət məsələlərində acizdir. Sevginin resepti yoxdur. Kim necə sevirsə - buraxın - qoy elə həmin cür də sevsin, təki sevsin. Bütün sevənlər gözəldirlər.

İnsan! Anla ki, acizsən, fanisən TƏK BİR O əzəli və əbədidir. Faniliyini anlayan, TƏK BİR O-nun baqi olduğunu anlayanların qəzeti.

Düşünən insan haraya baxsa TƏK BİR O-nun əsərlərini görür və sevir, TƏK BİR O-nu sevdiyinə görə O-nu sevənləri də sevir.

Asanlaşdıranların, çətinləşdirməyənlərin qəzeti – "QALİB SULTANLAR" qəzeti. Yaradılanı Yaradandan ötrü sevənlərin qəzeti.

İnsan kainatın kiçildilmiş surətidir. İnsanı sənə anlatmağa başlasam sən də çaşarsan – elə mən də...

İnsan özü haqqında bir düşüncə sahibi olmadığı halda başqasının düşüncəsi uğrunda savaşır.

Bizim məqsədimiz – TƏK BİR O-nun mükəmməl yaratdığı insanların bir-birlərini daha yaxşı anlamaları üçün vasitə olmaqdır!

İnsanlar hamısı ən gözəl biçimdə yaradılaraq dünyaya gəlirlər. Mənə görə "yaxşı və ya pis insan" məfhumu yoxdur. Yaxşı əməl və ya pis əməl edən insanlar var.

İnsanlar düşdüyü ailə, mühit və cəmiyyətdə aldıqları tərbiyyə nəticəsində formalaşırlar.

Bu qəzetdə milliyətindən, inancından, siyasi mənsubiyyətindən asılı olmayaraq, ancaq insanları yaxşılığa çağıran və pis işlərdən çəkindirən, adamların yalnız yaxşı əməllərindən bəhs edilən yazılar dərc olunacaqdır.

Bu qəzet müjdələyənlərindir, nifrət etdirənlərin deyil! … bu qədər. Bütün insanlar insan qardaşımızdır! İnsanların bir birinə qarşı daha xoşgörülü olmaları ücün təkliflərinizi gözləyirik.

Bütün gözəl sözlər TƏK BİR O-na məxsusdur.

TƏK BİR O-ndan gəlib O-na dönəcəyik.

Yoxdur O-ndan başqası. Yalnız O-na Güvənirik. Yalnız O-ndan imdad diləyirik. Yalnız O-na ibadət edirik.

Etibar olmaz özün göstərən aşiqlərdə. Əhsən O aşiqə ki, TƏK BİR O-nu pünhanı sevir!

TƏK BİR O inananlara qələbə vəd edib, ona görə də inananlar qalibdirlər!

O-na inananlar ibadəti nə O-nun cənnətinə görə edirlər, bu tacirlərin adəti, xasiyyəti, nə də cəhənnəmindən qorxduqlarından ötrü edirlər, bu da qulların xasiyyətidir.

Mən əzəldən bəri hürr yaşadım, hürr yaşarım,

Hangi çılğın mənə zəncir vuracaqmış, şaşarım,

Kükrəmiş sel kimiyəm, bəndimi çeynər daşarım,

Yırtaram dağları ənginliklərə sığmam, daşarım.

Qəzetimiz Mənəviyyatı maddiyatına qalib gələn kişilərin (Anadolu türkcəsində kişi-nəfər mənasındadır) qəzetidir.

TƏK BİR O-nun aşiqlərinin qazetidir. Heç bir dini icmaya, sektaya bağlı deyil, nəinki hər hansi bir partiya mənsubu, hətta heç siyasi görüşündə sahibi belə deyil.

Şüarımız GƏRƏK GÜLÜSTANA DÖNƏ BU DÜNYA. ƏGƏR SƏN İSTƏSƏN …O HEÇ DƏ XƏYAL DEYİLDİR!!!

Məqsədimiz bu çox qısa, ortalama cəmi 51 dəqiqə, bax: Hüseynin yazılarına, gəlin …dünya həyatımızda insanları xeyirli işlər görməyə çağırıb, pis işlər görməkdən çəkindirək o qədər.

Fəlsəfəyə bir az yaxınıq, TƏK BİR O fəlsəfəsinə.

FƏLSƏFƏ/ FILOSOFİYA - Yunan kəlməsidir: “filo” – sevirəm, “sofia” – hikməti – deməkdir.

Deyilənə görə ilk dəfə Sokrat demişdir bu sözü: “hikməti /müdrikliyi sevirəm”.

Mənə fəlsəfənin indi yazacağım açıqlaması daha xoş gəlir.

Düşünün ki, dünya böyüklüyündə nəhəng bir kisənin içi çoxlu sayda qozla doludur, və əvvəlcədən məlumdur ki, bu qozlardan yalnız birisinin içi boş deyildir – qozlardan yalnız həmin bircə dənəsi həqiqidir, məhsuldardır. Alim isə hər növbəti dəfə qafilcəsinə əlini kisəyə atıb bir qoz çıxararaq, - sanki axtardığını tapmış kimi - "Evrika!" deyərək fəryad edir.

Bir də müdriklərin birindən 5 yaşı olanda soruşurlar ki, "1" nədir?

Deyir TƏK BİR O! Bəs "2" nədir? sualına isə cavab verir ki, 1-i deyenden sonra 2-ni deməyə həya edirəm.

Bizim də qəzetimizdə söhbət yalnız TƏK BİR O-ndan gedəcək. İnsanlar TƏK BİR O-nu və insanlığı sevməyə dəvət ediləcək.

…Birgünlük ömrü olan kəpənək günün sonunda balası həyata gələndə balasına 1 günlük ömrü

olduğunu deyir, balası da axşama qədər ancaq öləcəyini düşünür, axşam balası dünyaya gələndə vəsiyyətini edir: "Bala, 1gün ömrün var; ömrünü kəpənək kimi yaşa!"

5 il bir məsciddə mollalıq etmiş birinin yerinə gələn molla görür ki, insanlar məscidin daxilinə ayaqqabı ilə girirlər, əvvəlki molladan bunu izah etməsini təvəqqe edir. Əvvəlki molla deyir ki, mən buraya gələndə bu insanların heç TƏK BİR O-ndan xəbərləri belə yox idi; mən onları ayaqqabı ilə də olsa məscidə alışdırmışam, sən də ayaqqabılarını çıxartdırıb ibadətə öyrəşdirərsən.

Heç kəs başqasının etdiyi əmələ görə cəzalanmır, biz də üzərimizə düşən vəzifəni belə yerinə yetirməyə çalışırıq, səhvlərimiz varsa da – bizə gözəl şəkildə bunu çatdırsanız çalışarıq bir daha səhvi təkrar etməmək şərti ilə özümüzü islah edək.

İnsan yeganə varlıqdır ki, mələklərdən üstün ola bilər, sizə mələklərdən üstün olmağı arzulayıram.

Hər kəsin qiyməti sevdiyinin dəyərinin qiyməti ilə ölçülür.

Sizə həyatda TƏK BİR O-nu sevib, O-nun dostlarından olmağı arzulayıram, sizi TƏK BİR O-na həvalə edirəm.

Əgər dost istəyirsənsə TƏK BİR O yetər !!!

TƏK BİR O-na inananların, güvənənlərin, sevənlərin qəzeti!!!

Müjdələyin, nifrət etdirməyin! Asanlaşdırın çətinləşdirməyin!

Biz zülmü, ədalətsizliyi törədən səbəbləri aradan qaldırmağa çalışırıq! Bu işi əsasən uşaqların vasitəsi və köməyi ilə aparmağı düşünürük. Çünki, böyüklərin dünya görüşləri formalaşıb, əksəriyyət etibarı ilə hər biri müəyyən bir ideoloji məktəbə mənsubdur.

Qoy ədalət zəfər çalsın! Azərbaycan dünyaya Günəş kimi doğacaq!

TƏK BİR O – açıq-aşkar dəlillərlə Özünü bizə göstərsə də yenə də X-dir (məchuldur).

TƏK BİR O bütün varlıqlar içində görünməyən, bilinməyən, zamanın və məkanın xaricindədir və s. (Müzəffər formuluna bax)

Bu bir aksiomadır, yəni, isbata ehtiyacı olmayan bir müddəadır.

Dünyada minlərlə, on minlərlə məbədlər, məscidlər, kilsələr, sinaqoqlar fəaliyyət göstərir. Hamısı da müxtəlif tərzdə və qaydada TƏK BİR O-nu təbliğ edir.

Müharibələrin, terrorların, anlaşılmamazlıqların sayı azalmaq əvəzinə daha da artır. Bizim bu Sülhsevər Liderlər Mərkəzində uşaqların məqsədləri Yaradanın Əzəmət dəryasına baş vurmaq, həqiqəti anlamaq, bunun zövqünü dadmaqdır! Arzuları isə bir saflıq və təmizlik ümmanıdır...

Bu cür sağlam düşüncə ilə böyüyən insanlar, sözsüz ki, həm sağlam ruha, həm sağlam bədənə malik yeni bir nəsilə çevriləcəklər. Nəticədə həqiqi və məcazi mənada xəstəliklərin kökü kəsiləcək, ayrı-ayrı mərəzlərlə mübarizəyə sərf edilən külli miqdarda vəsaitə ehtiyac qalmayacaqdır.

Məhəbbət Mülkünün Soltanları Sarayında milliyətindən və inancından asılı olmayaraq, Müzəffər formulunu qəbul edib insanları yaxşılığa çağıran, pis işlərdən çəkindirən, gözəl əxlaq öyrədən ali bir mühit bərqərar olacaqdır. Məhz bu mühitin təsiri altında bütün cinayətlərin kökündə dayanan qorxaqlıq və yırtıcılıq hisslərini törədən **cəhalətə** son qoyulacaqdır.

Mehribançılıq başda, rəhm qəlbdə, xeyirxahlıq əməllərdə, sülh gözlərdə, sədaqət biri-birinə uzanmış əllərdə olacaq. Dillər bal, nəfəslər rahat, işıqlar çox, ruzilər rəvan olacaq.

Əzablar insan varlığından yox olacaq. Bəşəriyyət xoşbəxt olacaqdır.

İnsanlar biri-birinə təşəkkürlü YARADANına şükürlü olacaq.

O dövrün insanları silahsız, sərhədsiz bir dünyada yaşayacaqlar. Orduya, silah və sursata sərf olunan maddi vəsaitlər isə insanların rifah halının yüksəldilməsinə xidmət edəcəkdir.

QƏLƏBƏ

TƏK BİR O …inananlara QƏLƏBƏ vəd edib. Özünü TƏK BİR O-na təslim etmək – artıq QƏLƏBƏDİR! Bəzən, qəlbsiz və kobud olduqları halda, …yaxınlarına, dostlarına, qarşılıqlı cavab almadan, yaxşılıq edirsən;

...əgər səni alçaltmağa çalışır, sənin yaxşı fikirlərini pis tərəfə yozurlarsa,

…əgər sən hər kəs tərəfindən unudulmusansa;

…əgər sən bir yaxşılıq edirsən və ya etməyə çalışırsan,

…lakin sənin fikirlərinə rişxəndlə yanaşırlarsa;

…əgər zövq və arzularına qarşı çıxırlarsa,

…məsləhətlərinə nifrətlə, kinayə ilə baxırlarsa;

…əgər sən – öz həyat şəraitindən razısansa, … yeməyinə, geyiminə, maddi durumuna, cəmiyyətdəki mövqeyinə;

…hətta TƏK BİR O-nun tərəfindən ərsəyə gətirilmiş və səni əhatə edən hər hansı bir eybəcər cəmiyyətin özü ilə belə razısansa;

…əgər başqalarından özünə qarşı gördüyün ədalətsizliyə, insanların pis xasiyyətlərinə, və bütün çatışmamazlıqlara… qəzəblənmədən …dözə bilirsənsə;

…əgər sənin haqqında süni şəkildə yanlış rəy yaradılmasına, hər cür təqiblərə, məntiqsizliklərə – bütün bunları mətanətlə qəbul edib, dözə bilirsənsə;

…əgər …hər zaman kölgədə qalmağı bacarır, …güclü bir adamın "xeyir-duasını" axtarmayırsansa;

…böhtandan qəlbin ağrayır, lakin bununla barışaraq, həmin insanların islah olunmaları barəsində dua edirsənsə;

…əgər sənin yolun çətindirsə, uğursuzluqlar və bəlalar səni izləyirlərsə, və belə bir qəmli halında da taleyinlə razısansa;

… dost adını üstlənən, lakin bunun ağırlığına qatlaşa bilməyən, yaxının sənə qarşı –ədalətsizdirsə

… Sən isə bütün bunları …səbr və sevgi ilə qəbul edirsənsə, …sənə qüssə və pərişanlıq gətirən şəxslərlə barışaraq …TƏK BİR O-na şükr edib, onlara dua edirsənsə – BU BÖYÜK QƏLƏBƏDİR !!!

Əgər bu xasiyyətlərinlə qısa dünya həyatını başa vurub …TƏK BİR O sevgilinə qovuşursansa – bax, bu TAM və QƏTİ QƏLƏBƏDİR!!!

Bu, TƏK BİR O-nun dostlarının və sözsüz ki, Peyğəmbərlərin əxlaqıdır!!!

Belə insanlar – Qalib Sultanlar adlanırlar!!! TƏK BİR O, bizi –70 il zahidlik etdikdən sonra, imansız

olaraq dünyasını dəyişən insanın durumuna düşməkdən qorusun… AMİN!

TƏK BİR O – mərhəmətlidir və yalnız O istədiyi insana həqiqi güc verər! Sən – Qalibsən!

TƏK BİR O …sənə hər nəyi veribsə – onu qoru, qoruya bilməsən – geriyə yol yoxdur! …keçmiş günləri geriyə qaytara bilməzsən,

Həyat – mübarizədir, kecmişi unut, irəliyə bax…

…əgər sənin qardaşın-dostun gözəl söz deyirsə – TƏK BİR O-nun doğru istiqamətini göstərirsə ona yardım elə, edə bilmirsənsə mane olma;

Mərhəmətli olun ki, – TƏK BİR O da sizə mərhəmətli olsun! Səbr et, qalan ömrünü tələsdirmə. O səni sevir. O səni qoruyacaq!

Səbr edənlər, şükr edənlər QALİBDİR. İnan! Umud et! Səbr et!

Qəlbini TƏK BİR O-nun əbədi həqiqətinə bağla. Sevgidə qorxu yoxdur. Kamil sevgi qorxunu qovur. Qorxuda əzab var, qorxan sevgi də kamil deyil.

İnsan yeganə məxluqdur ki, mələklərdən üstün ola bilir.
Hər kəsin qiyməti, – sevdiyinin qiymətinin dəyəri ilə ölçülür.

Sizə TƏK BİR O-nu sevməyi ve mələklərdən üstün olmağı arzulayıram!

1000 illərlədir TƏK BİR O-nun adına görə, O-na ibadət şəklinə gorə, hər kəs istəyir ki, – O-nu …özü çağırdığı ad ilə, O-na …özü istədiyi şəkildə ibadət etsin, inananlar və inanmayanlar arasında bunun üstündə mübahisələr, münaqişələr, hətta terror qarşıdurması və müharibələr gedir. Bu arada dırnaqarası siyasətçilər də, öz imperiyalarını genişləndirmək istəyənlər də, bunlardan çox məharətlə istifadə edib yararlana bilmişlər.

TƏK BİR O-nu sevən, O-nun yolu ile gedən …bütün insanlar – gözəl insanlardır. Onların qurtuluşa ərmələri üçün isə, sadəcə siyasətbazlardan uzaq durmaları yetər.

Altun çağın sülhsevər liderləri, Qalib sultanlar, yəni öz nəfsləri üzərində qələbə çalanlar, TƏK BİR O-nun izni ilə …2035-ci ilə qədər sərhədsiz dünya qurmaq əzmində olduqlarını bəyan edirlər!

Onların şüarı budur:

BİRLƏŞDİRİR BİZİ MÜZƏFFƏR İMAN,
MİLLƏTİMİZ İNSAN -YURDUMUZ CAHAN!
QƏDİM ZAMANLARDA SƏRHƏDSİZ İMİŞ,
SƏRHƏDSİZ OLACAQ, YENƏ BU DÜNYA!…
KƏSSƏ HƏR KƏS TÖKÜLƏN QAN İZİNİ,
QURTARAN DAHİ ODUR YER ÜZÜNÜ!!!

Ey bütün dünyanin dahiləri!!! …Böyük din adamları!!!

…TƏK BİR O-nu sevənlər!!! TƏK BİR O-nun yolunun qalib gəlməsi üçün uşaqlarımızın, gələcəkdə doğulacaq məsum körpələrin xoşbəxt-firavan, terrorsuz-müharibəsiz yaşaması naminə birgə əməkdaşlıq edək!!!

TƏK BİR O-nun yolunun yolçularının bir amal uğrunda çalışdıqlarını görən inanmayanlar da …mənəviyyatın maddiyata qalib gəlməsi üçün təqdim edilmiş "Müzəffər formulu" ilə TƏK BİR O-nun izniylə – inşaAllah sülhə gələrlər, AMİN!

Gəlin bir yerdə Qalib Sultanlara dəstək olaq!!! Gərçi bu iş sizin üçün çətin gələ bilərsə, heç olmasa dəstək verənlərə mane olmayın!

Zatən indi internet əsridir. Uşaqlar özləri hər şeyi bizdən tez qavrayırlar.

TƏK BİR O istəyirsə, bu O-nun üçün çox asandır "Ol" deyəcək – olacaq! İnşaAllah! AMİN!

TƏK BİR O-nun dediyi olur!

TƏK BİR O-ndan gəlib – O-na dönəcəyik, inşaAllah! AMİN!

Gəlin bir yerdə deyək: TƏK BİR O! – yoxdur O-ndan başqası!

Parolumuz da bu olsun: "TƏK BİR O!"

Bəziləri bir yazı yazanda deyirlər: "(Müəlliflik) haqqı mənimdir".

Mənsə deyirəm, …kim bunları bəyənirsə, …yazdıqlarım kimin qəlbindən xəbər verirsə, …həqiqətən də əsər onundur(!) və nə qədər bacarırsa öz adından dünyada təbliğ etmək haqqına malikdir.

Hər bir insanda incə, zərif duyğular var. Bu duyğuları şerə çevirənə – şair, musiqiyə çevirənə – bəstəkar, rəsm əsərinə çevirənə – rəssam deyirlər.

Bir sözlə – yaradıcı insanlar!

Bu fikirləri gözəl əsərlərə çevirmək üçün, TƏK BİR O-ndan sizə yaradıcılıq ilhamı bəxş etməsini təmənni edirəm!!! AMİN!

TƏK BİR O-nun …bir kimsəni …sənin vasitənlə hidayətə ərdirməsi – sənin üçün günəşin sənin üzərinə doğdugu və batdığından da daha xeyirlidir! Siz bu cür işlərdə kimə isə vəsilə olursanız nə mutlu sizlərə!!! Peyğəmbərlərin hamısı – insanları TƏK BİR O-nun yoluna dəvət ediblər. TƏK BİR O-nun əmrlərindən birinin həyata keçməsinə səbəb olmaq – milyardlarla xeyir etməkdən daha qiymətlidir!

Çünki, TƏK BİR O-nun əmrlərini yaymağa çalışmaqda – peyğəmbərlərin vəzifəsində onlara ortaq olmaq kimi uca şərəf var!!!

Din donuna bürünmüş cahillərindən qorunun!
Aslanlardan qaçan kimi cahillərdən qaç!
Şöhrət arxasınca qaçma!
Halal ye! Hər kəsə şəfqət və mərhəmət et!
Heç kim ilə münaqişə, mücadilə etmə!
Dünyaya az meyl edən – hürr olar, azad yaşayar!!!

Nəfsinin arzularına, istəklərinə əsir olan – heç vəch ilə TƏK BİR O-nun yoluna, millətinə, vətəninə faydalı olmaz.

Məşhur RUHNAMƏ əsərində nazir vəzifəsinədək yüksələn bir məmur 2 oğlunu, …özü uşaqlıqda çox ağır günlər keçirdiyinə görə, neçə ərköyün böyütduyünü və sonradan bunun ona necə baha başa gəldiyini anladır. Mənəvi hisslərdən zövq almayanlar – öd kisəsi xəstə olanlar kimidir, halvanı …acı zənn edərlər. Bəzi insanlar zəngin, vəzifəli bir qohumu, dostu olanda, qərəz üzündən başqaları ilə tanış etməyirlər.

Mən dünyanın harasında oluramsa olum imkanlı, vəzifəli, zəngin dostumu, qohumumu hər zaman, bu sonradan …mənim əleyhimə olacağını hətta bildiyim halda, başqaları ilə tanış etməyə can atmışam.

TƏK BİR O-nu …bu cür şövqlə təbliğ etməmin də səbəbi elə budur! Düşünürəm ki, qoy O-nu hər kəs tanısın-sevsin. O-nun DOSTLARI çoxalsın…

İnsanlıq TƏK BİR O-nun vasitəsi ilə qurtuluşa yetişə bilər.

Həyatın ən çox faydalı keçən saatları – ibadətlə keçən saatlardır. Faydasız və fani şeylər uğrunda çox vaxtlarını sərf edənlər "ibadətə vaxtım yoxdur" deyirlər. İBADƏT, üzüntülü ruhlara ləzzət verir, xəstələrə rahatlıq verir. RUHUN QİDASIDIR. QƏLBIN ŞƏFASIDIR.

Müdrik aşiq Bəyazid Bistaminin zamanında TƏK BİR O(!) …bütün insanların halını düşünüb ağladığına xatir, zamanın qütbü olmaq şərəfini, özü də bilmədiyi halda, – oxuma-yazma bilməyən bir dəmirçiyə ehsan etmişdi! …həmin dövrdə 70 min alim, kəramət sahibi olduğu halda!!!

Bu, dəmirçinin xasiyyəti idi. Mənim də xasiyyətim – budur!

İnsanlar arasında birlik və sülh, fikirlərində, əməllərində birlik yaratmağı, qəlblərində sevgini artırmağı TƏK BİR O-ndan birlikdə istəyək! AMİN!

Bu hərəkatın AZƏRBAYCANdan çıxması da təsadüfi deyildir. Mən də AZƏRBAYCAN

sevdalısıyam! Adında "CAN – RUH" sözü olan yeganə olkə – AZƏRBAYCANdır!

"AZƏRBAYCAN dünyaya günəş kimi doğacaq", inşaAllah! Amin!

Buradakı bütün gözəl sözlər TƏK BIR O-na aiddir! Hər kim nəyinsə ona məxsus olduğuna iddialıdırsa bilsin ki özü də TƏK BİR O-nundur! (Bu barədə bax: hər kəs dialoqdan danışır)

Sui-zənn etmə, önyarğılı olma, bir də …tələsərək əvvəlcədən hökm vermə!!!

MƏNİ RUHU QƏDƏR SEVDİYİNİ İDDİA EDƏNİN SÖZLƏRİ:

NƏYİN VAR ÖZÜNƏ VERİB GEDİRƏM.

HƏR BİR ƏZABINI GÖRÜB GEDİRƏM.

SİNƏMİ ÖLÜMƏ GƏRİB GEDİRƏM.

MƏN SƏNİ ƏZƏLDƏN SEVMƏDİM, ƏLVİDA DÜNYA!

TƏK BİR O-nun vüsalı ilə alışıb yanan, heç nə bilmədiyini bilən, Qalib Sultanların xidmətçisi Alikram deyə görünən.

SÜLHSEVƏR LİDERLƏRİN VƏZİFƏLƏRİ

- Sağlamlıqlarını qorumalı, vücudlarını xərab edən içki və başqa zərərli şeylərdən uzaq qalmalı,

güclü bir iradəyə sahib olmağa çalışmalı.-TƏK BİR O-nun yoluna bağlanmalı, başqalarının xatiri üçün Doğru Yoldan ayrılmamalı, ağlını elm nuru ilə aydınladaraq yanlış fikirlərdən qorumalı.

GÖZƏL XASİYYƏTLƏRİN BƏZİLƏRİ

* Ədəb – gözəl tərbiyyə deməkdir. Ədəb – insanın ziynətidir. Ədəb – insanı pislikdən qoruyur.

* Ehsan – yaxşılıq etmək, bağışlamaq.

* İxlas – hər etdiyini təmiz qəlb və niyyətlə ANCAQ TƏK BİR O-nun rizası üçün etmək.

* İstiqamət – hər işdə ədalət ve doğruluqdan ayrılmamaq.

* Etimad – xalqın güvənini qazanmaq, güvənilən insan olmaq.

* Ülfət – insanlarla gözəl danışıb, dost olmaq.

* Əmniyyət – insanların sirlərini və əmanətlərini gözəlcə saxlamalı.

* İqtisad – lazımsız yerə bədxərclik etmirlər.

* İnsaf – ədalətli hərəkət edir və haqqı qəbul edir.

* Təfəkkür – TƏK BİR O-nun böyüklüyünü düşünür, ixtiralar etməyə calışır.

* Təvazö(karlıq) – haqqı çatan mərtəbənin aşağısına belə razı olur. TƏK BİR O-nun dostlarının

xasiyyətidir. Əksi olan təkəbbürlülük isə Fironun xasiyyətidir.

* Comərdlik – insanların ehtiyaclarını ödəmək.

* Hikmət – elm və əməlin birləşməsindən əmələ gələn yüksək bir haldır.

* Dilini qorumaq – dilinə sahib olan lazım olduğundan çox söz danışmır.

* Şəfqət – insanlığa xidmətdir

* Şükr – TƏK BİR O-na hər zaman şükr edən, insanlara da hər zaman təşəkkürlü olur.

* Səbr – bütün çətinliklərə dözmək.

* Sədaqət – doğruluq, insana yaraşan hər sözdə, hər işdə doğru olmaqdır. Doğruların yardımçısı TƏK BIR O-dur.

* Fərasət – bir şeyi tez anlamaq qabiliyyəti, bir insanın əxlaqını üzündən anlamaq .

* Müşavirə – məsləhətsiz bir iş görməmək.

* Vəd – verdiyi sözü yerinə yetirmək.

* Vəfa – dostlarını və verdiyi sözləri unutmamaq vəfalı olmaq deməkdir.

QALİB SULTANLAR NECƏ OLMALIDIRLAR /…VƏ TƏK BİR O-NUN İZNİYLƏ BELƏ OLACAQLAR - İNŞAALLAH!

- Bilmədikləri bir şey haqqında hökm verməyirlər.

- TƏK BİR O-nun xoşuna gəlməyən, əxlaqa yaraşmayan əməllərin sahibi olmazlar.

- Heç kəsin eyibini, gizli çatışmamazlıqlarını araşdırıb faş etməzlər.

- İnsanlar arasında qarışıqlıq salmırlar.

- Əmanətə xəyanət etməzlər.

- Ata-anaya itaət edir, onların qəlbini heç vaxt incitməzlər.

- Düşünmədən iş görməyirlər.

- Tənbəl deyildirlər.

- Küsənləri barışdırmağa çalışırlar, kin saxlamırlar, paxıllıq etmirlər.

- Zənginlik və kasıblıq zamanında başqalarına kömək edirlər.

- Qonşularına hörmət və yardım edərlər.

- Əliylə və diliylə heç kimi incitməz, israf və simiclikdən uzaqdırlar.

- Yalan danışmayır, yalan yerə and içməz, yalançı şahidlik etməzlər.

- Ən böyük qayələri – həqiqi surətdə TƏK BIR O-na təslim olmağa çalışmaq, gözəl əxlaqlı yaşayaraq bütün insanlara nümunə olmaqdır.

- TƏK BİR O-ndan olmağını istədiyi bəndələrdən olmağı nəsib etməyi arzulayaq. Amin!

TƏK BİR O-nun dostlarının mübarək sözlərindən

Qəlb əhlinin rədd etdiyini - bütün qəlblər rədd edər.

Alimlər - kitabları oxuyaraq bilirlər. O-nun dostları isə - kitabdakıları görərək bilirlər.

Məşhur olmağı arzulayanlar sonunda rəzil olurlar.

Dünya - alimlər sayəsində düzəlir. Alimlər pozulunca - dünya da pozulur.

Elmin də, əməlin də əsli səbrdir.

Ümmətin duzu alimlərdir. Duz xarab olarsa onu daha nə islah edə bilər kİ?

Dünyanı, günahkarların günahının çoxluğu yox – alimlərin yaltaqlığı xarab edir.

Yolun haqq olduqdan sonra dostlarının azlığı səni kədərləndirməsin.

İnsanlar günahlardan qaçmaqla TƏK BİR O-na yaxınlaşırlar.

Elmin sonu acizlik və mübahisədir.

Bir şeyi sevən - onun əsiri olur deməkdir. TƏK BİR O bəndəsinin özündən başqasının əsiri olmasını istəməz.

Üsyanına səbəb ola biləcək ölçüyə çatmadan, ancaq sənə yetəcək qədər sənə ruzi verməsi TƏK BİR O-nun sənin üzərinə qoyduğu neməti tamamladığını göstərir.

Ağıllı olan insanlar keçici şeylərə deyil, qalıcı olan şeylərə sevinirler.

Qəlbin ölüm əlaməti edə bilmədiyin əməllər üçün kədərlənməmək, etdiyin günahlardan ötrü peşmanlıq çəkməməkdir.

Bəzən sənə dəyərsiz görünən əməllər, qəbul olunmağa ən yaxın olanlardır.

Hər soruşulana cavab verən, hər gördüyünü anladan, hər bildiyini söyləyən birisini görsən -onun cahilliyini anla.

TƏK BİR O-nun yanında dərəcəni bilmək istəyirsənsə, səni hansı işin başında bulundurduğuna bax. TƏK BİR O-nun səni qulluğa əhil sayması sənə rütbə olaraq yetər.

Kimə həqiqətə məxsus söz söyləmə izni verilirsə, sözləri xalqın könüllərinə təsir edər.

Çalışmadan dua edən, silahsız hərbə gedən kimidir.

Əvvəllər yaxşılıq edər, bunu dilə gətirməzdilər, …sonra həm etməyə, həm deməyə başladılar, …indi isə ancaq söyləyirlər.

Böyüklük nəsəblə deyil fəzilət və kamillik ilədir.

3 şey qəlbi öldürür; çox yemək, çox yatmaq, çox danışmaq.

Uşağın hər istədiyi yerinə yetirilirsə - ona pislik edilmiş olur.

Vaxtını boş yerə keçirən cahildir.

Bir kimsə özünü tərifləməyə başlasa dəyəri aşağı düşər.

Axmaqlıq xətada israr etməkdir.

İşlədiyiniz günahları gizlətdiyiniz kimi, etdiyiniz yaxşılıqları da gizlədin.

Çox zarafatın axırı peşmanlıqdır.

Xoşlanmadığınıza səbr etmədikcə, xoşlandığınızı əldə edə bilməzsiniz.

Danışmağı öyrəndiyiniz kimi, susmağı da öyrənin.

Nemətlərin ən yaxşısı - çalışaraq qazanılandir.

Bütün bəlaların başı - pis yoldaşdır.

Xoşuna gələn hər şeyi söyləyən, bir gün də xoşuna gəlməyən şeylər eşidər.

Ağıl kimi mal, …yaxşı xasiyyət kimi dost, …ədəb kimi miras, …elm kimi şərəf olmaz.

Qənaət edən - əziz, acgözlük edən isə - zəlil olur.

Başqaları səni susdurmadan, sən susmağın yerini və vaxtını bil.

Dünya 3 gündür; dünən, bugün və sabah. Dünən keçdi, sabahın gələcəyi məlum deyil, elə isə …bu günün qiymətini bil!

Təkəbbürlü və qəzəbli olmaq insanın başına çox fəlakətlər gətirir.

Dostlarınızı tərk etməyin, siz də tərk edilərsiz.

Söz var iş bitirir, söz var baş itirir.

Sıxıntıları gizli tutmaq mürüvvətdəndir.

Süfrədə əllərin çoxalması bərəkətdir.

Gözəl danışmaq sərmayədir.

Ölümü xatırlamaq - qəlbə ciladır.

Atana sayğılı ol ki, oğlun da sənə sayğılı olsun.

Ölümün elçisi doğumdur.

Zəifləri ziyarət təvazödəndir.

İnsanın səlaməti - dilini qorumaqdadır.

Zəiflərin silahı şikayətdir.

Dostun vuruşu (zərbəsi) daha acıdır.

Dil yarası qılınc yarasından daha acıdır.

TƏK BİR O-na güvənənlərin vaxtı xoş kecər.

Qənaətkar ol - sultan olarsan!

Ağıllı düşmən, ağılsız dostdan xeyirlidir.

Qəlbin qatılığı toxluqdan gəlir.

İnsanın dəyəri önəm verdiyi şeyə görədir.

Yumşaq danış – sevilərsən.

Vay düşməndən gələn məsləhətə.

İdarəçilər üçün rahatlıq yoxdur.

Sən ruzunu necə axtarırsan, o da səni elə axtarır.

İnsanlar yuxudadırlar, öldükləri zaman ayılırlar.

Söyləyənə baxma, nə söylədiyinə bax.

Cahillikdən daha pis xəstəlik yoxdur.

İnsan bilmədiyinin düşmənidir.

Çoxları öz zərərləri üçün çalışırlar.

Müvəffəqiyyətə güvənmə - müvazinətini itirərsən!

Araşdırmaq xeyrə aparıb çıxarar.

Ağıl çoxalınca, söz azalar.

Sənə təqdir edilən sənə çatar.

İbrəti görən götürər.

Nemətin əldən getməsini qabaqlayın, çünki gedən geriyə qayıtmaz.

Nəticələri düşünən cəsarətsiz olar.

Dünyaya az meyl edən hürr yaşar.

Əlimizə, dilimizə sahib olaraq… TƏK BİR O-ndan dualarımızın O-na yetişməsini, O-na yaxınlaşmağı bizə nəsib etməsini diləyək!

AMİN!

DÜNYA LİDER AXTARIŞINDADIR

Qlobal Strategiya İnstitutunun müdiri və Beynəlxalq Strateji Araşdırmalar Mərkəzi (CSİS) Sədr müavini Erik R. Peterson "2025- doğru dünya" ("The World to 2025") adlı məruzəsində "Dünya ölkələri gerçək lider sıxıntısı çəkir" deyir: "Bu gün dünya ölkələrinin çəkdikləri sıxıntı gerçək lider olmamasından irəli gəlir. Gələcəyin problemlərinə daha bir problemlər ortaya çıxmadan, gərəkli tədbirləri ala bilmək üçün sadəcə Amerikada deyil, bütün dünya ölkələrində bacarıqlı sülhsevər liderlər yetişməsi gərəkdir."

Məhəbbət Mülkünün Sultanları Sarayında (MMSS) məhz bu cür bacarıqlı sülhsevər liderlər - Qalıb Sultanlar yetişdirilməsi nəzərdə tutulur.

NİYYƏTİN HARA – MƏHƏBBƏT MÜLKÜNÜN SULTANLARI SARAYI - MƏNZİLİN ORA



Məhəbbət Mülkünün Sultanları Sarayında Qalib Sultanların illərə görə artımı:

İLLƏR	QALİB SULTANLARIN SAYI
2011	1000
2012	2000
2013	4000
2014	8000
2015	16000
2016	32000
2017	64000
2018	128000
2019	256000
2020	512000
2021	1024000
2022	2048000
2023	4096000
2024	8192000
2025	16384000
2026	32768000
2027	65536000
2028	131072000
2029	262144000

2030	524288000
2031	1048576000
2032	2097152000
2033	4194304000
2034	8388608000
2035	**ALTUN ÇAĞ DÖVRÜ BAŞLAYIR**

Bu sarayda "ən böyük biclik – düzlükdür" həqiqəti ilə uşaqlara **doğruluq** və **həqiqət** anladılacaq.

Düşünün ki, içi boş qozlarla dolu dünya böyüklükdə bir kisədə sadəcə biri doludur. Alim hər dəfə əlini atıb o kisədən bir qoz çıxaranda "evrika" qışqırır. Yəni axtardığımız həqiqət birdir.

Müdriklərin birindən uşaq yaşlarında soruşurlar ki, bir nədir? Cavabında: "Yaradandır" söyləyir. "İki nədir" sualına isə cavab verir ki, biri deyəndən sonra ikini deməyə həya edirəm. Yaradanın adları sonsuz olduğundan, kim Yaradanı necə sevirsə, elə çağıracaq.

Altın çağın İnsanları ancaq Yaradanın sonsuz olan adlarını tərənnüm edəcəklər:

- Qəlbləri Yaradana bağlı olacaq.

- Məqsədləri Yaradanın Əzəmət dəryasıdır, arzuları da saflıq və təmizlik ümmanıdır.

Bu cür sağlam düşüncə ilə böyüyən insanlar, sözsüz ki, həm sağlam ruha, həm də sağlam bədənə malik olacaqlar. Bu səbəbdən də xəstəliklərin kökü kəsiləcək, nəticədə, müxtəlif xəstəliklərlə mübarizəyə sərf edilən külli miqdarda vəsaitə ehtiyac qalmayacaqdır.

Məhəbbət Mülkünün Sultanları Sarayında milliyətindən və inancından asılı olmayaraq,

Müzəffər formulunu qəbul edib insanları yaxşılığa çağıran, pis işlərdən çəkindirən, gözəl əxlaq öyrədilən mühit olacaqdır. Məhz bu mühitin təsiri altında bütün cinayətlərin kökündə dayanan qorxaqlıq hissini törədən cəhalətə son qoyulacaqdır. Mehribançılıq başda, rəhm qəlbdə, xeyirxahlıq addımlarda, sülh gözlərdə, sədaqət biri-birinə uzanmış əllərdə olacaq. Dillər bal, nəfəslər rahat, İşıqlar çox, ruzilər rəvan olacaq. Əzablar insan varlığından yox olacaq. Bəşəriyyət xoşbəxt olacaqdır. İnsanlar biri-birinə təşəkkürlü olacaq. O dövrün insanları silahsız, sərhədsiz bir dünyada yaşayacaqlar. Orduya, silah və sursata sərf olunan vəsaitlər isə insanların rifah halının yüksəldilməsinə xidmət edəcəkdir.

- Yaradanın İNSANdan istədiyi budur və cəmi peyğəmbərlər də bunu təbliğ etmişlər.

- Eyni zamanda, bütün tərəqqipərvər bəşəriyyəti təmsil edən BMT-nin insan haqları bəyənnaməsi də bu amalı həyata keçirməyə xidmət etməkdədir.

*****Bu Sarayda təhsil almış uşaqlara 'Altın Çağın Sülhsevər Lideri' sertifikatı veriləcək.**

*****Müzəffər formulunu qəbul edənlərə 'Qalib Sultan' Diplomu veriləcək.**

LAYİHƏ TƏKLİFİ FORMASI

1. LAYİHƏNİN ADI

Bu günün və gələcəyin sülh carçıları

2. PROBLEMİN TƏSVİRİ

Müasir dövrdə sivilizassiyaların arasında dialoq qlobal səviyyədə bəşəriyyətin ən vacib ehtiyaclarından birinə çevrilmişdir.

Çünki indiki zamanda bir çox hallarda sivilizas-siyalararası, mədəniyyətlərarsı dialoqdan danışılır, ancaq bununla bərabər, dünyada gedən proseslər, əfsuslar olsun ki, bəzi hallarda gərginliyin artmasına gətirib çıxarır.

Ölkəmizdə əsas inkişaf istiqamətləri ilə əlaqədar cəmiyyətdə fikir ayrılığı yoxdur, əksinə, bizim cəmiyyətimiz ümumxalq amalları ətrafında birləşibdir: azərbaycançılıq fəlsəfəsi, müasirlik, öz tarixi köklərimizə ənənələrimizə bağlılıq. Eyni zamanda, Azərbaycan dünyəvi dövlətdir. Azərbay-canda bütün dinlərin nümayəndələrinə çox böyük hörmət vardır.

Sülh dialoqunun, sülh mədəniyyətinin, mədəniyyətlərarası, dinlərarası dialoqun hazırda

sülh və təhlükəsizliyə qorxu yaradan amilləri aradan qaldırmağa və ən əsası, münaqişələrin həll edilməsinə və sülh prosesinə dəstək verilməsinə yardımçı olacaqdır.

"İdeal Sülhün Təbliği" Fondu öz üzərinə dünyada barışı yaymaq kimi müqəddəs və bəşəri missiya götürüb. Adından göründüyü kimi Fondumuz dünyada ideal sülhün bərqərar olması üçün bütün potensialını səfərbər etmiş insanların könüllü birliyidir.

Bir azərbaycanlı və müsəlman olaraq biz dünya insanlarını özümüzə qardaş bilir və hər kəsi qardaşlığa, bərabərliyə, haqqa, ədalətə, səbrə dəvət edir pislikdən çəkindiririk.

Gələcək nəsillərin sülhsevər olması və bu böyük ideyanın həyata keçməsi üçün Fondun nəzdində milliyətindən, inancından asılı olmayaraq 10-15 yaşlı uşaqlardan ibarət "Beynəlxalq Parlament Mərkəzi", "Sərhədsiz dünya uğrunda" mübarizə aparır.

Bununla bərabər uşaq parlament nümayəndələri başqa ölkələrə gedib müxtəlif görüşlər keçirməklə Azərbaycanın həqiqətlərini yaymağa çalışacaq, oradan da xarici dövlətlərin uşaqlarını Azərbaycana dəvət edib, həqiqətləri gözləri ilə görməyə səsləyəcəklər.

Ermənistan təcavüzünün ölkəmizə və xalqımıza vurduğu zərərin miqyası günbəgün artmaqdadır. Təcavüzkar erməni liderləri isə bundan qazandıqlarını çox yaxşı bildikləri üçün "Nə sülh, nə müharibə" rejimi kimi xarakterizə olunan atəşkəsi uzatmaqda nə qədər maraqlı olduqlarını gizlədə bilmirlər. Bu işdə beynəlxalq ictimaiyyət də onlara az dəstək vermir. Bu isə onların əsl həqiqətlərdən xəbərsiz olmasının, Azərbaycan xalqı barədə təsəvvürlərinin yanlışlığının nəticəsidir. İllərdir vətənpərvər insanlarımız Azərbaycan həqiqətlərini beynəlxalq aləmdə təbliğ etməkdədir. Bununla belə bu sahədə yenə də görüləsi çox işlər var. İnsanlar bu və ya digər məsələ barədə bir qayda olaraq öz ölkəsinin KİV-lərindən məlumat alır. Media isə əksər hallarda ölkənin rəsmi mövqeyindən kənara çıxmamağa çalışırlar. Buna görə də Azərbaycan həqiqətlərinin digər ölkələrdə təbliğinin alternativ yolları axtarılmalıdır. Bunun üçün 12 nəfər məktəblinin qardaşlıq və sülh çağırışlarıyla Qahirə şəhərinə bir həftəlik səfərini təşkil edəcəyik. Öncədən lazımi qaydada hazırlaşdıracağımız bu uşaqlar Qahirədəki beynəlmiləl məktəbdə oxuyan yaşıdlarıyla görüşdürüləcək, birgə tədbirlərdə Azərbaycan həqiqətlərini dilə gətirəcəklər. Proqramın hər iki öl-

kədən telekanalların diqqət mərkəzində olması üçün lazımi tədbirlər görəcəyik.

3. LAYİHƏNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

Layihənin məqsədi azərbaycanlı və misirli uşaqların diliylə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırmaq, Misir ictimaiyyətinin xalqımız haqqındakı şablon düşüncələrini dağıtmaq, düşmən təbliğatının ziddinə olaraq sülhsevər, tolerant bir millət olduğumuzu bir daha sübut etməkdir.

4. LAYİHƏDƏN FAYDALANANLAR

Layihədən bütün dünya ictimaiyyəti, ilk növbədə isə azərbaycanlılar faydalanacaq..

5. LAYİHƏNİN HƏYATA KEÇİRİLƏCƏYİ COĞRAFİ ƏRAZİ

Layihənin ilkin mərhələləri Azərbaycanda, pik nöqtəsi isə Misirin paytaxtında gerçəkləşəcək.

6. LAYİHƏ ÇƏRÇİVƏSİNDƏ GÖRÜLƏCƏK İŞLƏR

Layihə çərçivəsində 12 nəfərlik təbliğatçı məktəbli heyəti formalaşdırılacaq, onlar lazımı qaydada öyrədiləcək, Qahirədəki Beynəlmiləl Orta Məktəbin rəhbərliyi, o cümlədən Qahirə şəhər meriyası ilə razılaşdırıldıqdan sonra layihə rəhbərinin, iki nəfər məşqçinin müşaiyəti ilə 12 nəfərlik məktəbli qrupu Qahirəyə gedəcək. Orada bir həftəlik proqramdan sonra heyət geri dönəcək.

7. LAYİHƏNİN İCRA MÜDDƏTİ və İCRA PLANI

Layihə qəbul edildiyi (maliyə yardiminin başladığı) gündən etibarən 3 ay müddətinə nəzərdə tutulub.

8. GÖZLƏNİLƏN NƏTİCƏLƏR

Layihənin icrasından əldə olunacaq konkret nəticələr Misir, habelə dünya ictimaiyyətinin Dağlıq Qarabağ münaqişəsinə baxışının dəyişməsi, misirli məktəblilərdə ölkəmiz haqqında xoş fikirlər yaradılması və s. olacaq.

Layihələr ölkəmizdə sülh mədəniyyətinin, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına, sülh hərəkatının güclənməsinə, müharibə

və münaqişələrin aradan qaldırmasına öz töhvəsini verəcəkdir.

9. LAYİHƏNİN MONİTORİNQİ VƏ DAVAMLILIĞI

Layihənin əsas məqsədi təbliğat olduğu üçün bunun əks-sədası uzun müddət eşidiləcək. Misir səfərindən sonra yaranan dostluq əlaqələrini davam etdirmələri üçün uşaqlara şərait yaratmağı da planlaşdırırıq. Bunun ardınca isə misirli məktəbliləri ölkəmizə dəvət edəcəyik. Onların gəlişiylə burada bir daha təbliğat şansı əldə edəcəyik.

Azərbaycan parlamentinin deputatları ilə, incəsənət ustaları ilə, tanınmış insanlarla görüşlər, dəniz gəzintisi ümumi ad günlərinin qeyd edilməsi, tarixi abidələrə, muzey, rəsm qalereyası, qədim İçəri Şəhərə səyahətlər təşkil olunacaq. Daha sonra isə Fondun çəkdiyi, İnsanları birliyə, sülhə çağıran, bir-birilərinə xoşgörülü davranmaları üçün təklif edilən yeni **Sülh Modeli**ndən bəhs edilən "İnsan" filmi izlənilləcək.

10. LAYİHƏNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ HESABATLILIĞI

Layihənin hesabatı donora vaxtlı-vaxtında təqdim ediləcək. Bundan başqa tədbirlərimizin Bakıdakı hissəsinə donorun nümayəndəsi də dəvət ediləcək. Misirdəki tədbirlərimizi isə mediadan izləyəcəksiniz və əlavə olaraq onların videoyazılarını sizə təqdim edəcəyik.

11. BÜDCƏ

Yol xərci	nəfər	15	800	12000
Mehmanxana (mənzil), gündəlik yemək və digər xərclər	nəfər	15	700	10500

Yekun: 22 500

HƏR KƏS DİALOQDAN DANIŞIR

Dialoq – latın mənşəli kəlmədir. Mənası iki nəfərin qarşılıqlı danışması deməkdir.

…Siyasi, elmi, dini dialoqlar məşhurdur, dostlar arasında, ədəbiyyatçılar və filosoflar arasında da maraqlı dialoqlar olur, son dövrdə dinlər və mədəniyyətlər arası dialoq dəbə düşüb.

Mənim tədqiqat obyektim insan olduğu üçün məhz İNSANLARARASI DİALOQ başlatmaq fikrinə düşmüşəm. Uzun illərdirdir mən də bir çoxları kimi, qurtuluş yolunun axtarışındaydım.

Əvvəl İstanbulda "**Adam**" jurnalı dərc etməyə başladım, sonra gördüm adam olmaq çətindir...özüm də daxil. "Sən yaradılmışların ən üstünüsən" kitabcıq yazdım.

Dünyanı gəzib deyirdim *"adam adına layiq olun*!" …70-dan çox ölkə gəzmişəm.

Türkiyə ikinci vətənimdir, 250 dəfəyə qədər gedib-gəlməyimi saydım, artıq hesabı itirmişəm.

Fikrimcə bəşərin faciəsi cahillikdir. İnsan özü haqqında bir düşüncə sahibi olmadığı halda insanlığa yaraşmayan düşüncə uğrunda terrorlar, müharibələr... törədir.

Aqil insanda trilyonlarla hüceyrələr mövcuddur.

Hər hüceyrənin də yetmiş iki min (72000) funksiyası var.

"Bir"dən "bir milyard"a qədər saymaq üçün isə yüz altmış beş (165) il vaxt lazımdır, bu təqribən üç insan ömrü qədərdir.

Yəni insan özünü bu qısa ömründə tanımır və tanıya da bilməz, çünkü fiziki cəhətdən də bu mümkün deyildir.

İnsanı bir tərəfdə qoyub gələk maddəyə. Atom, neytron, proton indi hələ bir "X" zərrəsi də tapılıb - bilinmir nədir.

Alimlərin dediyinə görə atomlar saniyədə qırx (40) milyon dəfə toqquşur. Əlli beş (55) min km yol gedir və s.

Öz aramızdır, onların sözünə də bel bağlamaq olmur; gah belə deyirlər, gah elə. Biz hələ maddəni, ruhu tam bilmədiyimiz halda Yaradanı dərk etməyə çalışırıq.

Elm bir sualdır, eşq isə gizli cavab!

Ziya Paşa deyir: "*idraki-məali bu kiçik əqlə gərəkməz, zira bu tərəzi o qədər siqləti çəkməz*".

Füzuli isə deyib: "*Arif odur bilməyə dunyavü-mafiha nədir*,

Bəxtiyar Vahabzadə (Azərbaycanın xalq şairi 1925-2009) deyir: "*İnsan ay kimidir, görünməyən tərəfi*

var. Yerləri göyləri dərk edən insan kaş ki, özünü dərk edə bir an".

Bizim ağlımız məhduddur, Yaradan isə sonsuzlugun ötəsindədir. Biz hələ maddəni dərk etmədiyimiz halda Onu dərk etməyə çalışırıq, sonlu əql ilə. Onu dərk etmək mümkün deyil.

Bütün bu dediklərimizi **www.qalibsultanlar.com** saytında ətraflı izah etmişik, arzu etsəniz tanış ola bilərsiniz.

Dialoqdan danışırıq, mütləq bir məqamı xüsusilə qeyd etməliyəm, …etməsəm özümü bağışlaya bilmərəm. İslam insanlığın son dinidir deyirlər, amma fikrimcə "…İLK və SON dinidir" söyləmək daha doğru olardı. Bunu hörmətli din xadimlərimiz də yaxşı bilirlər.

Türkiyə Cümhuriyyətinin qurucularından biri olan İsmət İnönü demişdir :

"Bir millətin vicdanlıları vicdansızları qədər cəsarətli olmadıqca o, millətin qurtuluşu yoxdur!" Mən bir yerdə də oxumuşam ki, bu ingilis atalar sözüdür.

Yeri gəlmişkən gənclərə hər zaman deyirəm ki, sitatın kimə aid olduğu barədə heç vaxt mübahisə etməyin. Misal üçün: "**yaradılanı sevirik Yaradandan ötrü**".

Türkiyəlilər deyir, Yunus Əmrənin sözüdür. İranlılar deyir, Sədi Şirazinin sözüdür, və yaxud "Azərbaycan dünyaya günəş kimi doğacaq!" Məmməd Əmin Rəsulzadənin (Azərbaycanın görkəmli dövlət və ictimai xadimi, 1884-1955) ya Heydər Əliyevin (Azərbaycanın görkəmli dövlət xadimi, 1923-2003) sözüdür.

Mən də deyirəm bütün gözəl sözlər Yaradana məxsusdur.

Akademik A. Mirzəcanzadə deyirdi: "Hər bir yeni yaxşı unudulmuş köhnədir".

Qayıdaq mətləbə.

Bütün vicdanlılardan xahiş edirəm! Tək dinin olmağı haqqında danışmaga cəsarət göstərsinlər. Millət dedim… Mən bütün insanlığın, ADƏMDƏN yarandığına görə, vahid bir millətdən ibarət olduğu inancındayam. Mən həmişə fəxr etmişəm ki, mən Azərbaycanlıyam. Dünya azərbaycanlıların birinci qurultayında ulu öndər Heydər Əliyev bu sözləri deyəndə mənim gözlərim doldu..;

Haşiyə: mən də cavan vaxtlarımda hər zaman, hər yerdə belə deyərdim. Amma olurdu cavanlıq idi, cahillik dövrü idi, olurdu ki Vətənim Azərbaycanın hüdudlarından kənara getdiyimdə, yəni xarici ölkələrdə olduğum zaman, əlimdən pis əməl və ya

ağzımdan bir pis söz çıxanda, Azərbaycanın adına xələl gətirməmək üçün - deyirdim "başqa millətdənəm".

Bununla özümə haqq qazandırmıram, sadəcə olduğunu deyirəm.

Yeri gəlmişkən xaricdə yaşayan azərbaycanlıların üzərinə 2 qat məsuliyyət düşür, çünki Azərbaycanda edtiyin bir hərəkətə görə tək özün məsulsan. Xaricdə olarkən isə edtiyin nalayiq bir hərəkət həm bütün Azərbaycanlıların və müsəlmanların adına yazılır.

Nə isə yenə mövzudan uzaqlaşdım. Bir fəlsəfə konfransında çıxış edərkən dedim ki, ulu öndər müqəddəs kitabları da, dini də yaxşı bilirdi. Dində milliyətçilik yoxdur, biz hamımız İbrahimin millətindənik, onu da gözəl bilirdi.

Ona görə bu sözləri deyəndə, ki mən həmişə fəxr etmişəm ki, mən Azərbaycanlıyam, Azərbaycan vətəndaşıyam - insanıyam demişdir. Bütün insanlar insan qardaşımızdır. Bu yazıdan sonra mütləq bizim haqqımızda bir şeylər söyləyəcəklər.

Onlarin cavabını indidən məşhur bir hədislə veririk.

Məhəmməd Peyğəmbəri (S) heç zaman görməyən bir adam səhabə Əbu Bəkrdən onun necə adam olduğu haqqında soruşanda cavab alır ki, çox

gözəl xasiyyətli, xoş ətir gələn gözəl insandır.

Eyni sualı Əbu Cəhlə verəndə isə əks cavab alır.

Həzrəti Peyğəmbəri gördükdə, ona özünün verdiyi sualları və aldığı cavabları söyləyir. Cavabında Rəsulu-Əkrəm deyir ki, "mən haqqın aynasıyam, hər kəs məndə özünü görür." Bizdə onun yolunun yolçusu yəni davamçılarıyıq.

A.S. Puşkinin bir misrasında deyildiyi kimi – "*tərifi, iftiranı saymazyana qarşıla, hər əbləhə qoşulub bəhsə girişmə əsla*!"

Bir də bizim saytda hər kəs öz səhifəsini açıb, öz fikirlərini və soy ağaclarını qoya bilər. Bununla biz bütün dünya əhalisinin biri birinə qohum olduğunu göstərmək istəyirik.

Dünyada yaşayan insanlarin dini etiqadlarına, inanclarına görə sayını aşagıda göstəririk. Bütün bu müxtəlif inanclı insanların ortaq məxrəcə gəlib dialoqa başlaması üçün bizə görə ən uyğun formul "Müzəffər formulu"dur.

Dünya əhalisi aşağıda göstərilən nisbətdə müxtəlif etiqadlara mənsubdur:

xristian - 2, 1 milyard
sekulər, dinsiz, ateist - 1, 4 milyard
islam - 1, 2 miyard
hinduizm - 900 milyon

buddizm - 708 milyon
Çin gələnəksəl inancları - 394 milyon
Afrıka gələnəksəl inancları - 100 milyon
siqhizm - 23 milyon
musəvilik - 14 milyon
bəhailik - 12, 5 milyon
hormolizm - 12 milyon
yehovaçılıq - 6, 7 milyon
sinto dini - 4 milyon
zərdüştilik - 2, 6 milyon

Bizim fondun adı - bildiyiniz kimi, İdeal Sülhün Təbliği Fondudur.

İslam "silm" kəlməsindən gəlir. Silm - sülh və barış deməkdir. Dilimizdə olan "salam, salamat, təslim" kəlmələri də "silm" kökündən gəlir.

"21-ci əsrdə biz istəsək də, istəməsək də müxtəlif fikirlər, inanclar, siyasi düşüncələr özlərini dünyaya qəbul etdirmək üçün çalışırlar. Bu məqsədlə, nəzarəti, qadağan olunması mümkün olmayan texniki vasitələrdən istifadə edirlər.

Radio, televiziya, internet qarşısında artıq hec bir fikri qadağan etmək olmaz.

Fitnəkar xarici gücün görünməz yardımı olanda bu məsələ daha da ciddiləşir.

Bizim heç bir yeni din ortaya çıxarmaq fikrimiz

yoxdur, yalnız hər zaman və hər yerdə ən məsum təşəbbüsləri də pis niyyətlərinə alət etmək istəyənlər mövcüddur."

Ona görə Sizi daha çox yormamaq üçün bizim dialoqla bağlı çalışmalarımızla maraqlananlara **www. qalibsultanlar. com** saytında bunlara baxmağa dəvət edirik:

1) Müzəffər formulu
2) "Sülhə dəstək verək" başlıqlı yazı
3) Altun cağın cocuqları (video)
4) Qalib sultanların himni
5) İdeal sülh
6) "Sən yaradılmışların ən üstünüsən" - kitabcıq
7) İnsan
8) İnsan !!!???...x
9) Nə mutlu insanam deyə bilənə - sənədli videolar
10) Dünya lider axtarışındadır
11) "Ey insan anla!" - yazı
12) Mənim çıxışım (video)
13) Rus dilində fəlsəfə konfransında çıxışım
14) Beynəlxalq Parlament Mərkəzinin Dünya Liderlərinə müraciəti
15) Tək Bir Yol var Onun Yolu
16) Formula Pobedı Retsept Spaseniya Mira

İDEAL SÜLHÜN TƏBLİĞİ FONDUNUN sülhsevər liderləri insanlarla dialoqda xoşrəftarlı, gözəl xasiyyətli, səbrli, ədalətli, bağışlayan, birinin günahı ilə başqasını təqsirli bilməyən, ikna ilə, məhəbbətlə anladan, hər kəsə nümunə olacaqlar, İnşaallah!

2035-ci il: Millətimiz insan. Yurdumuz cahan. Altun çag dövrü başlayır. Gələcəyin dünya dövlətini bizim altun çagın çocukları quracaq.

Bu dövlət öz milli-mənəvi dəyərlərini qoruyan xalqların və biri-birinə hörmət edən mədəniyyətlərin birliyindən ibarət olacaqdır.

ƏGƏR SƏN İSTƏSƏN O BİR XƏYAL DEYİLDİR!

EY İNSAN ANLA! Anla ki, həyatın həqiqətini tam anlamağa bir ömür yetmir.

BÜTÜN GÖZƏL SÖZLƏR YARADANA MƏXSUSDUR

Xəbəriniz olsun və əmin olun ki, Fondumuzun heç bir dini cərəyanla bağlılığı və əlaqəsi yoxdur. Məqsədimiz – Azərbaycan xalqını bütün dünyada sülhsevər və beynəlmiləlçi bir xalq kimi tanıtmaqdır. Bu yolla biz Azərbaycan həqiqətlərini dünyaya çatdırmağı düşünürük.

Mən uşaq olanda çoxlu mütaliə edirdim və düşünürdüm ki, dünyada hamıdan ağıllıyam. Böyüdüm, dünyanın 70-dən çox ölkəsini gəzdim, bir çox qurultaylarda oldum, hal-hazırda 62 yaşım var və indi anlamışam ki, mən heç nə bilmirəm.

Dahi filosof Sokrat da demişdi ki, "Bir onu bilirəm ki, ...heç nə bilmirəm!". Sonra isə bu qənaətə gəldim ki, bəşəriyyətin faciəsi – cahillikdir.

İnsan ilk öncə özü haqqında biliyə sahib olmalı, özünü tanımalıdır. Özü haqqında bir düşüncəyə sahib olmadığı halda başqasının düşüncəsi uğrunda sürdürdüyü savaş nə dərəcədə doğrudur?

İnananlar inanır ki, insan Adəmdən yaranıb, bəziləri isə düşünür insan meymundan yaranıb. Amma hər iki halda bütün insanlıq bir ailədəndir.

İnsan beynində trilyonlarla hüceyrə var. Hər hüceyrənin də 72 min funksiyası var. 1-dən milyardadək (1.000.000.000) saymaq üçün isə 165 il zaman lazımdır. İnsan ömrü özünü öyrənməyə yetmir. Gəlin bunu sirr qəbul edək.

İnsanda 300.000 istedad var: 200-ü çobanlara, 10.000-15.000-i alimlərə, 50.000-60.000-i isə peyğəmbərlərə verilib.

Bilik o zaman müdrik dərəcəsinə çatır ki, insanların ümumi rifah halının yaxşılaşdırılması üçün istifadə edilsin. Əgər biliklənmə, yəni informasiya və təhsilə yiyələnmə insanın xasiyyətinin pozulmasına səbəb olursa, müdriklik sayıla bilməz.

Elm – din (yəni Tanrı tanıma / Allah sevgisi) işlərində müəyyən bir yerə qədərdir. Ondan sonra "palçığa batmış uzunqulaq" kimidir.

Peyğəmbər (S.) Ühud savaşından qayıdanda "*Biz indi ən böyük cihada gedirik*" deyir. Səhabələri, "axı indi cihaddan qayıtdıq, 70 şəhid vermişik" deyirlər. Peyğəmbərimiz (S) isə cavabında "*Biz indi nəfsimizə cihad edəcəyik, ən böyük cihad – nəfs ilə cihaddır*" deyir.

"Din üçün", "İslamiyyət üçün", "Vətən üçün" devizləri gözəldir, ancaq ən öndə **"İnsan üçün"** devizi olmalıdır. Çünki insansız din də, vətən də gərəksizdir. İnsanlarla yarışa son qoyub, iç dünyamızdakı əbədiyyət yarışına qatlaşaq.

Qalib sultan – nəfsinə qalib gələndir.

Almaniya konstutsiyasının preambulası "Allahın və insanların qarşısında məsuliyyəti dərk edərək" sözləri ilə başlayır.

ABŞ dollarının üzərində "biz Allaha güvənirik" yazılmışdır.

Bizim də şüarımız oxşardır: Y**aradanımıza güvənirk, yaradılanı Yaradandan ötrü sevirik!**

Təməlini sevgi, divarlarını sədaqət, pəncərələrini xoş niyyət, qapılarını hörmət, tavanını etibar ilə hörəcəyimiz bir dünya qurmağa çalışmaq – ən böyük əqidəmizdir.

İnsanın dərdi nədir? – Tanrı axtarma dərdi. İnsan bu dünyada özündə bütün varlıqlara qarşı ...bir növ qəribəlik, biganəlik və uyuşmazlıq hiss edir, çünki bütün bunlar fani, dəyişkən və qeyri-sabitdir. Amma insanda bir məxfi əbədilik hissi var – bu da o ruhdur, ki öz əslinə dönməyə tələsir. İnsanın dərdi – Haqqdan uzaqlığı və bunu hiss edərək **Onun Özünə** ***yaxınlaşmaq arzu və şövqüdür.***

İki faciə var:

- Biri: ən çox arzuladığın şeyləri əldə etmək istədiyin halda, əldə edə bilməmək.

- İkincisi isə: onları əldə etmək!

... İkincisi birincisindən daha dəhşətlidir.

TANRINI, SEVGİNİ, İNSANI VƏ KAİNATI SİRR KİMİ QƏBUL ET

Ey insanlar! Onsuz da öləcəyinizi bilirsiniz, bəs niyə bir-birinizi öldürməyə tələsirsiniz?!

Unutma: Bir adam öldürən, bütün bəşəriyyəti öldürmüş kimi, bir adamı xilas edən bütün bəşəriyyəti xilas etmiş kimidir.

İnsanı öyrən! Özünü öyrən! İnsan da, kainat kimi sonsuzdur... Əslində, ***insan – kainatın kiçilmiş formasıdır***.

«İnsanı sənə anlatmağa qalxsam, sən də çaşarsan, mən də» (Mövlana).

İnsan yeganə məxluqdur ki, mələkdən üstün və heyvandan da aşağı ola bilər. Sizə mələklərdən üstün olmağı arzu edirəm! Bütün dua edən əllər səmaya qalxır. O əllərə yox – ovucların açıldığı, onların üz tutduğu istiqamətə baxın.

Dünyada narkomaniyaya, sərxoşluğa və AİDSə qarşı milyardlarla pul xərclənir. Əgər insanlar Müqəddəs Kitablarda yazılanlara və ya heç olmasa BMT-nin İnsan Haqqları Bəyənnaməsinə əməl etsələr idi, bu günkü durumlara düşməzdilər. Çünki, əslində

hər ikisi də, insanların və bütünlüklə bəşəriyyətin tərəqqisinə xidmət edir.

Dünya kimin daha yaxşı bəndə olduğunun, kimin daha gözəl işlər gördüyünün anlaşılacağı bir imtahan yeridir, yoxlama meydanıdır.

Bu imtahanda insanlar bəla və müsibətlərlə qarşılaşırlar. Maddi və mənəvi sıxıntılarla, dərdlərlə imtahan olunurlar.

İnsanın vəzifəsi bu imtahanlardan bacarıqla, üzüağ çıxmaqdır. Başda Peyğəmbər(S) olmaqla hər kəs bu imtahana tabedir. Hətta ilahi hikmətin təcəllisi olan bir həqiqət var ki, bu meydanda ən çox sınağa çəkilən – peyğəmbərlərdir.

Ən çətin, ən şiddətli işlər, dəhşətli müsibətlər peyğəmbərlərin və onlara tabe olanların başına gəlmişdir. Əslində bütün insanlar yoxlanılmaqdadır və bu fərqli şəkillərdə baş verir. Ancaq sağlam ağıl sahibləri bunu anlayırlar. Müsibətlər qarşısında möminlərdən gözlənilən isə ...səbrdir(!).

İnsan sevdiyinin uğruna sıxıntılara dözür; onun sevgisi, ümidi müsibətlərə səbr etməkdə onun işini asanlaşdırır.

İnsanın öz taleyindən şikayət etməsi xoşagəlməzdir, Rəbbi haqqında şübhəyə düşməsi isə

çox çirkindir. Ata-ana öz övladını onun yaxşılığı naminə cəzalandırır.

Müsibətləri səbr ilə qarşılayanlar haradan gəldiklərini və haraya gedəcəklərini bilməklə, Yaradanın onları sahibsiz buraxmayacağının ümidi ilə toxtaqlıq tapırlar.

Peyğəmbər (S) insanın bəlalara məruz qalmağının səbəbləri arasında: əmanətə xəyanət, zəkatın cərimə sayılması, ata-anaya etibar göstərilməməsi, layiq olmayana vəzifə verilməsi, qorxu xatirinə kiməsə hörmətlə yanaşmaq, içkinin çoxalması, keçmiş alimlərin pislənməsi kimi hərəkətləri sadalayır.

Bir nəfər bütün dünyanı xilas etmək iddiasına düşür. Lakin bir neçə il keçir, dünyanı xilas etməyi bacarmadığını görüb, düşünür ki bəşəriyyəti xilas edə bilmədim, heç olmasa öz dövlətimi, millətimi xilas edim. Lakin ömürdən bir neçə il keçir heç nəyi dəyişə bilmir.

Sonra düşünür ki, belə olan halda heç olmasa ailəmi xilas edim. Ancaq ailəsini xilas etməyin də öhdəsindən gələ bilməyir. Nəhayət başqa çıxış yolu tapmayıb düşünür ki, heç olmasa ...özümü xilas edim.

Ancaq təəssüf ki, illər ömürdən artıq ötüb-gedəndən sonra, günlərin birində ölüm onu haqlayır, belə ki, o bir tək özünü də xilas etməyə gecikir.

Özünü xilas etməyə gecikənlərin siyahısında olmayın! Hər kəs özünü xilas edə bilsə; insanlıq da xilas olar.

Bu dünyanı uşaqlar xilas edəcək... Mən, uşaq deyəndə həmin sırada böyükləri də nəzərdə tuturam. Çünki hər böyüyün də öz uşaq dünyası var və biz hamımız Yaradanımızla sanki valideyn-övlad münasibətlərindəyik.

...Ruhumuz Yaradandan gəlib və ona da dönəcəkdir.

Bir nəfər Həzrəti Əliyə (ə.s.) sual verir. Həzrəti Əli (ə.s) həmin sualın cavabını bilmədiyini dedikdə sual verən şəxs – "Bilmirsənsə düş minbərdən aşağı! Orası hər şeyi bilənlərin yeridir" – deyir. Həzrəti Əli (ə.s) isə cavabında, "hər şeyi bilən Allahdır, burası isə birini bilib, birini bilməyənin yeridir" söyləyir. Baxmayaraq ki, Peyğəmbər (S) Əli(ə.s.) haqqında "Mən elmin şəhəri, Həzrəti Əli isə – onu qapısıdır" demişdir.

Amma Həzrəti Əli(ə.s.) bilmədiyinə "Bilmirəm" deməkdən qorxmadı.

Bir alimə sual verirlər, alim sualı cavablandıra bilmədikdə, ona, "...dövlətin xəzinəsindən boş yerə məvacib alırsan" deyirlər. Alim isə cavabında "mən hələ bildiklərimə görə məvacib alıram, bilmədiklərimə görə alsaydım xəzinə mənə yetməzdi" deyir.

Bilmədiklərinə "...bilmirəm" deməkdən utanma, qorxma, hər şeyə yetər yetməz "bilirəm" deməkdən qorx!

Ya alim ol, ya tələbə, ya dinləyən ol, ya öyrənən, ya da onları sevənlərdən ol....

Allah qatında elə bəndələr var ki, peyğəmbərlər və şəhidlər onlara qibtə edir. Belə bəndələr – insanlar arasında sevgi, dostluq, mehribanlıq, barış yaradanlardır!

...Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü."
H.Cavid

"Elm – bilməkdir, elm – əvvəla özünü bilməkdir!
Sən özünü bilməsən, bildiyin nə bilikdir?..."

Mən əzəldən bəri hürr yaşadım – hürr yaşaram.

Hansı çılğın mənə zəncir vuracaqmış? Şaşaram!
Kükrəmiş sel kimiyəm, bəndimi çeynər, ...aşaram,
Yırtaram dağları, ənginlərə sığmam, ...daşaram!

«Qula bəla gəlməz – Haqq yazmadıqca
Haqqsa, bəla yazmaz – qul azmadıqca,
Haqq bəlanı qula qul ilə verir
Dinsiz qulsa bunu "qul etdi" sanır.»

Uşaq atası haqqında:

6 yaşında – "Atam hər şeyi bilir"

10 yaşında isə – "Atam çox şey bilir"

15 yaşında – "Mən də, atam qədər bilirəm"

20 yaşında – "Atam o qədər də çox bilmir" deyə düşünür.

60 yaşında, atasını itirdikdən sonra isə təəssüflənərək:

– "Keşkə atam sağ olaydı, onunla məsləhət edəydim..." deyir.

Heç kəs keçmişini, bugününü və gələcəyini mütləq surətdə dəqiq surətdə bilmir.

Səlahəddin-i Əyyubi ölümünü hiss edib, carçıya əmr edir ki car çəkərək desin:

"Ey camaat! sultanımız buyurur ki, özü ilə kəfən, günah və savablarını aparır. Dünya məqamı sizi

aldatmasın. Dünyada gəlib-gedən insanın misalı, "bir ağac altında kölgələndikdən sonra yoluna davam edən atlının" misalı kimidir. **Yaradandan başqa hər şey fanidir!"**

Bəlxin sultanı Allah övliyasından olan İbrahim Ədhəm dərvişliyi sultanlıqdan üstün tutaraq, hökmdarlıqdan imtina edib dərviş olub ömürlük səfərə yollanır. Bir nəfər ondan müsəlmanların qurtuluş yolunu göstərməyini istəyir. İbrahim Ədhəm isə cavabında deyir: "...siz mənə müsəlmanları göstərin ki, mən də sizə onların qurtuluş yolunu göstərim".

Sultanlardan biri vəsiyyət edir ki, öləndə onun sağ əlini açıq şəkildə tabutdan bayırda qoysunlar. Carçı sultanın vəsiyyətini elan edəndə, camaat təəccüblənir. Vəzir camaatın çaşqınlıqda qaldığını görüb, sultanın bu vəsiyyətlə nə demək istədiyinə aydınlıq gətirərək deyir "Sultanımız bununla bizə son dərsini verir, o bu vəsiyyətlə bu qədər var-dövlətə sahib olduğu halda bu dünyanı əliboş tərk etdiyini demək istəyir!?"

Bu dünya ikiqapılı gözləmə salonu kimidir...

Yaradan bir şeyi özündən çox sevməyə icazə vermir. Həyatda nəyi çox sevirsənsə Ulu Yaradan onu əlindən alır. Yaradanı özünüzə dost edin!

Ayağını isti saxla, başını sərin,
Yeməyinə diqqət et, düşünmə dərin.

Bir çox insan başqa cəmiyyətləri, ölkələri, əqidələri, dinləri tanımadan sadəcə bir bəhanə axtararaq özünə məxsus olmayanı günahlandırır. Bu cür ədalətli olmayan günahlandırmadan ona sarı ədalətsiz görünən cəza irəli gəlir. Belə yanaşma çox təhlükəlidir.

İnsan tanımadıqlarının, bilmədiklərinin düşmənidir.

Bir insan xörəyi yemədən necə bilər ki acıdır, şirindir, soyuqdur yoxsa istidir.

Müdriklərdən biri yolla gedərkən bir dəstə adamı görüb onlardan kimliklərini soruşanda, "...biz Allahın mütəvəkilləriyik" deyirlər.

O yenə soruşur "...siz mütəvəkkil olaraq nə edirsiniz?"

Onlarsa cavabında " ...biz tapanda yeyirik, tapmayanda isə gözləyirik" deyirlər. Müdrik şəxs isə

"Mütəvəkkil o şəxsdir ki, tapanda paylaşar, tapmayanda isə səbr edər" deyə cavab verir.

Özü tox ikən qonşusu ac yatan bizdən deyildir!

(Hədisi-şərif)

Peyğəmbəri (S) görməyən şəxs Peyğəmbərimiz(S) haqqında Əbu Bəkrdən soruşur. Əbu Bəkr isə cavabında "O çox müdrik, gözəl qoxulu insandır".

Həmin şəxs daha sonra eyni sualı Əbu Cəhlə verir. Bu dəfə isə tam əks fikirlər eşidir.

Fərqli cavablar alan həmin şəxs Peyğəmbərə(S) olanları danışır.

Peyğəmbər (S) isə "Mən Haqqın aynasıyam. Hər kəs özünü o aynada necə görsə elə təsvir edir" deyə cavab verir.

Tərifi / iftiranı saymazyana qarşıla,
Hər əbləhə qoşulub, bəhsə girişmə əsla.

Bir gün padşahla vəziri yolla gedərkən yolun kənarında oturan bir nəfər görürlər. Padşah vəzirə onun kim olduğunu öyrənməyi əmr edir. Vəzir ondan kim olduğunu soruşduqda həmin şəxs də eyni sualla vəzirə müraciət edir. Vəzir "Mən vəzirəm..." deyə cavab verir.

"Səndən böyük kimdir?" sualına isə "Məndən böyük – padşahdır" cavabını verir. "Bəs padşahdan böyük kimdir?" sualının cavabında isə "Padşahdan böyük –Allahdır!" deyir. "Allahdan böyük kimdir?" sualını isə "Heç kim!" deyə cavablandırır. Bu cavabdan sonra həmin şəxs vəzirin sualını cavablandıraraq "Bax, mən həmin "heçkiməm"" deyir.

H.Əliyev heç bir alimin ya bir siyasi xadimin cəsarət edib deyə bilmədiyi sözü ilk dəfə olaraq sərbəstcə dedi: **"Mən fəxr edirəmki, Azərbaycanlıyam"**

(Bunu deməklə əslində bir daha humanistliyini sübut etdi və **Azərbaycan vətəndaşı, insanı** olduğu üçün fəxr etdiyini dedi. O bu sözləri Dünya Azərbaycanlılarının I Qurultayında deyəndə mən də, o qurultayda idim və Əli Əhmədovun yanında oturmuşdum. Əli Əhmədovun göz yaşlarını tuta bilmədiyini görüb "Gözdən yaş çıxarmı – ürək yanmasa?!" dedim.)

Mən insanda sədaqət və səmimiyyəti dəyərləndirirəm.

Qoy ədalət zəfər çalsın.

Ədalətsizliyi ədalətlə həll edin.

Müqəddəs Quran`i-Kərimə əməl edənlər uğur qazanacaq, əməl etməyənlər isə ziyana uğrayacaqlar.

Həyat – mübarizədir. Hər şey ola bilər. Səbr, dözüm, iradə lazımdır. Hər zaman Haqq qələbə çalıb.

H.Əliyevin zamanında qəbul edilən konstitusiyanın 5-ci maddədə yazılımışdır **"Azərbaycan xalqı vahiddir"**

"Azərbaycanın müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir" deyib H.Əliyev. Biz də hər zaman bunun üçün çalışmalıyıq.

Biz H.Əliyevin nitqlərini formula çevirib **"MÜZƏFFƏR FORMULU"**nu aldıq. Bu formul qloballaşma dövrünün zəfər qazanma formuludur.

BURADAKI BÜTÜN GÖZƏL SÖZLƏR YARADANA MƏXSUSDUR

Yer üzünə yalnız mənim əməli saleh bəndələrim varis olacaq. Əməli saleh bəndələr, ölümdən sonra yaşamaq istəyən münəvvərlər, fikir sancısı çəkənlər, həqiqi möminlər, tək dinin Yaradana təslim olduğunu bilənlər, dünya tapmacasına cavab axtaranlar, müasir və gələcək dünyamızda sülh şəraitində yaşamaq istəyən hərkəs üçün

MÜZƏFFƏR FORMULU

MƏNƏVİYYATIN MADDİYATA QALİB GƏLMƏ FORMULU

Sivilizasiyalar arası, mədəniyyətlər arası dialoqun baş tutması, insanların bir-birinə xoşgörü ilə baxması üçün İdeal Sülhün Təbliği fondunun sülh modeli.

Düşünün ki, sonsuz bir dairə var: dairənin içərisinə yaradan, sevgi, kainat, vicdan, təbiət, həqiqət, haqq-

ədalət yazırıq. İçində yaza bildiklərimizi və yaza bilmədiklərimizi bütün dillərdə düşünün. Sonsuzluğu sonlu olan ağıl ilə anlamaq olmaz. İnsanlar! Bunları başa düşməyə çalışaq ki, bir-birimizi dil, milliyət və irq fərqi qoymadan xoş görə bilək. Anlayan ölür, ölən anlayır.

1. İnsan ağlına, gəncliyinə, milliyətinə, inancına, gözəlliyinə, sərvətinə görə özünü başqasından üstün görməməlidir.

2. Kim sübut edə bilər ki, peyğəmbərlər hansı millət-dəndir?

3. Hər şey əslinə dönəcəkdir. O halda ölümdən niyə qorxursunuz.

4. Kim neçə nəsil ata-anasını saya bilər. Özünə rəva görmədiyini başqasına rəva görmə.

Fikrimizi insanlığa daha aydın izah etmək üçün bu formadan istifadə edək.

1. Maddə-var olan, görünən, bilinməyən

2. Ruh-can-var olan, görünməyən, bilinməyən
3. Yer kürəsi-var olan, görünən, bilinməyən
4. Kainat-var olan, görünən, bilinməyən
5. Sevgi-var olan, görünməyən, bilinməyən
6. Sonsuzluq-var olan, görünməyən, bilinməyən
7. Yaradan-var olan, görünməyən, bilinməyən

Bu yazdığlarımızın heç birinin əvvəli və sonu bilinmir. Dünya da fırlanmağındadır. Hər kəs bu bilinməyənləri öz bildiyi kimi anlayır və başqalarına da öz bildiyi kimi anlatdığına görə anlaşılmazlıq yaranır.

Biz hələ gördüklərimizi dərk edə bilmirik.

İnsan maddəni və ruhu bilmədiyi, anlamadığı halda Yaradanı dərk etməyə çalışır.

Yaradılan Yaradanı dərk etmək iqtidarında deyil. Biz bütün bunları deməklə insan, kainat, sevgi, Yaradan haqqında diskussiyalara (dərk olunana qədər) son qoyaraq, şərti olaraq sirr olaraq qəbul edib dünyada insanların bir-birinə xoşgörü ilə baxmasına dəvət edirik.

MÜZƏFFƏR FORMULU

YARADAN – İNSANIN SİRRİ,
İNSAN – YARADANIN SİRRİ

Yəni sonsuz bir okean
Bir damlada gizlidir!
Bircə damla – sonsuz okeanda gizlidir



İNSAN



HƏR KƏSIN QƏBUL EDƏCƏYİ ƏLAVƏLƏRƏ HAZIRIQ

Müzəffər Formulunu qəbul edənlərə "Qalib Sultan" diplomu veriləcək.

İDEAL CƏDVƏL

İndiki şəraitdə "milli mənəvi dəyərləri qorumaq şərti ilə necə qloballaşmaq mümkündür?" mövzusunda müxtəlif diskussiyalar aparılır. Bəşəriyyəti öz səyi ilə yaşadan, onun inkişafını sürətləndirən, cahanı bütövləşdirən – elmin, mədəniyyətin, iqtisadiyyatın, siyasətin səmimi vəhdətidir.

Əsas bazis – *vətandaş-insan* olmaq şərti ilə dünyada qanun və normativ aktların, iqtisadiyyatın, elmin, maarifin kompleks şəkildə həmahəng inkişafını nəzərdə tutan cədvəli Sizlərin müzakirənizə təqdim edirik.

Sahələr / **Səviyyələr**	**Qanun və normativ aktlar**	**İqtisadiyyat**	**Elm**	**Maarif Mədəniyyət**
Qlobal-İdeal				
Dünya dövlətləri (sev)				
Regional dövlətlər (sev)				
Ölkə (sev)				
Şəhər (sev)				

Rayon (sev)				
Bələdiyyə (sev)				
Məhəllə (sev)				
Ailə (sev)				
Vətəndaş-insan (sev)				

* * *

“Azərbaycanda bütün sahələrdə olduğu kimi mənəvi tərbiyə və ideoloji təbliğ sahəsində də mühüm işlər görülür.

Amma bu... alimlərimiz, ictimaiyyətçilərimiz, xüsusən də filosoflar tərəfindən lazımınca təhlil olunmur, (onların işlərində) ümumiləşdirilmiş şəkildə öz əksini tapa bilmir.”

H.Əliyev

Hər kəs sülhdən, dialoqdan danışır. Biz dialoqa başlamaq üçün ilkin şərt olaraq Müzəffər formulunu qəbul etməyi təklif edirik.

Füzuli deyib:

“Hikməti-dünyavü-mafiha bilən arif deyil,
Arif oldur, bilməyə dünyavü-mafiha nədir.”

Ziya-paşa da bunun təsdiqi olaraq belə deyib:

“İdraki-məalı bu kiçik ağla gərəkməz
Zira bu tərəzi o qədər siqləti (ağırlığı) çəkməz.”

Həqiqət birdir. ...Günəşə bir güzgüdə baxsaq onu bir dənə görəcəyik, amma güzgünü sındırsaq

onun hər hissəsində günəş görəcəyik, amma bu Günəşin bir neçə dənə olması demək deyil. Belə ki, Həqiqət də təkdir!

Gəlin hər istədiyimizi həqiqət qəbul etməyək, yalnız mütləq həqiqəti Həqiqət qəbul edək. Çalışaq, Həqiqəti istədiyimiz kimi yox, olduğu kimi qəbul edək.

Neçə Allah var? -1

Neçə səmamız var? -1

Neçə din var? -1 (Yaradana təslim olmaq dini)

Yaradan şəksiz-şübhəsiz birdir. Bütün peyğəmbərlər(ə.s.) İslamı təbliğ edib, bütün Müqəddəs Kitablar da İslamı təbliğ edib.

Buna görə əsil həqiqətdə Səmavi din birdir. Dinlərarası yox, insanlararası dialoqdan söhbət gedə bilər.

Ya Rəsulum! Sənə ancaq səndən əvvəlki peyğəmbərlərə deyilənlər deyilir. Həqiqətən sənin Rəbbin həm bağışlayan, həm də şiddətli cəza verəndir.

"*Fussilət*" surəsi, ayə 43

İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O, ancaq hənif (batindən Haqqa tapınan, tam varlığı

ilə Haqqa yönəlmiş olan) müslim (Allaha təslim olan) idi və (əsla Allaha) şərik qoşanlardan deyildi.

"*A(a)li-İmran*" surəsi, ayə 67

(Allahdan bir möcüzə olaraq körpə dilə gəlib) dedi:

"Mən həqiqətən, Allahın quluyam. O mənə Kitab (İncil) verdi, özümü də peyğəmbər etdi."

O, harada oluramsa olum, məni mübarək (həmişə hamıya xeyir verən, dini hökmləri öyrədən) etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyyə buyurdu.

"*Məryam*" surəsi, ayə 30, 31

And olsun axşam çağına ki, insan ziyan içindədir. Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyyə edən və səbri tövsiyyə edən kimsələrdən başqa!

"*Əsr*" surəsi.

İslam sülh, barış dinidir. İslam – təslim olmaq deməkdir, müslim /(müsəlman) isə Yaradana təslim olan deməkdir.

Qalib Sultanlar Sarayında da ancaq **1**-dən (Vahidü-Əhəddən) söhbət gedəcək.

Sarayda gözlər danışacaq, dilə ehtiyac olmayacaq. Gözlər qəlbin aynasıdır. Buraya qəlbləri ilə, maskasız gələcəklər. Bizim geyinə biləcəyimiz ən gözəl fitri maska öz üzümüzdür. Ya olduğun kimi görün, ya göründüyün kimi ol.

Sabit fikirli insanlar fikirlərini dəyişmirlər. Amma bir şeyi unudurlar ki, insan daim kamilliyə doğru addımlamalıdır.

Qoy **"Yaradanın təkdir"** fikri, yeganə sabit fikrimiz olsun!

Hər kəs bir olmaqdan, yəni birlikdən danışır. Mütləq surətdə birləşmək mümkün deyil. Çünki Yaradan hər bir insanı ayrı-ayrı özünəməxsus surətdə və biçimdə yaradıb. Amma, işbirliyi, əməkdaşlıq etmək mümkündür.

İnsanlar arasında problem törədən 2 səbəb var:

Sui-zənn: yəni öncədən (həqiqəti araşdırmamış) yanlışlıqla bədfikir düşünmək və önyarqı: yəni tələsərək (yenə də həqiqəti araşdırmamış) qərəzli hökm çıxarmaq.

Müqəddəs kitab olan İncildə də buyurulub: **"Öncədən mühakimə etməyin ki, öncədən mühakimə olunmayasınız".**

Cahil müsəlmanın İslama vurduğu zərəri, heç kim vurmamışdır.

Dünyanın problemi – inanan və inanmayanlar (arasındakı münasibətlər) problemidir. İnanmayanlar inananlara cahil kimi baxır. Kamillikdən uzaq qalmış bəzi inananlar da, inanmayanlara cahil kimi baxır. Bəlkə də dünyada ilk dəfə olaraq bu işi ağsaqqalların müdrik sözü ilə həll etməyə çalışacağıq.

Xalqın milli ənənəsinə görə ağsaqqallar el-obaya düzgün yol göstərən, çoxluğu təmsil edən, əhalinin gələcək strategiya və taktikasını müəyyənləşdirən, uşaqlara öyüd verən, "qanı qanla deyil, su ilə yumağı" tövsiyyə edən şəxsiyyətlərdir. Ağsaqqal kişi sözünü axıra saxlayar.

Atalar ağsaqqallarla yanaşı ağıllı fikir söyləyən kiçiklərin də sözünü eşitməyi məsləhət görərək "Bir özündən böyüyə, bir də, özündən kiçiyə qulaq as" deyiblər. Ağsaqqal insanlığın zirvəsinə ucalmış şəxslər, yolunu azanların qarşısında dayanmış mayakdırlar.

Dünyanı ağsaqqallar və uşaqlar xilas edə bilərlər. "Dövlətdə dəvə, övladda nəvə" deyib atalarımız. Nəvəni nəyə görə sevirlər?

Çünki övlad valideynlərinə özü də istəmədən həm maddi, həm də mənəvi ziyan vurur. Nəvə də öz növbəsində öz valideynlərinə eynən bu cür zərər verir.

“Düşmənimin düşməni dostumdur” deyib atalarımız. (əlbəttə bu bir zarafatdır).

İnananlar inanırlar ki, yaxşılıq etsələr – cənnətə gedəcəklər.

İnanmayanlar isə ən azından bu dünyada onlara lənət deyil, rəhmət oxunsun deyə qoy pis işlərdən çəkinsinlər.

İnananlar inanmayanlara rəhm etsinlər ki, onlar bərzəx və axirətdə cəhənnəm əzabını dadacaqlar.

İnanmayanlar isə inananlara ona görə rəhm etsinlər ki, onlar hazırkı dünya həyatından doyunca bəhrələnməyirlər.

Ən azından bütün bunlara görə hər iki tərəf biri-birinə qarşılıqlı hörmət edib, gözəl həyat sürsünlər.

Arif ilə alim görüşür. Görüşdən sonra arifdən alim haqqında soruşurlar. Arif “...onun bildiklərini mən görürəm” deyə cavab verir. Sonra isə alimdən arif haqqında soruşurlar. Alim isə cavabında “...onun gördüklərini mən bilirəm” deyir.

Haqqın tərəzisində alimin mürəkkəbi, şəhidin qanından ağırdır.

Şairə deyirlər “Görmə!” – “Gözümü yumaram, görmərəm” deyir

Deyirlər “Eşitmə!”–“Qulaqlarımı tutaram, eşitmərəm” deyir.

Deyirlər "Dinmə!" – "Ağzımı yumaram, danışmaram" deyir.

Şairə "Qanma!" əmrini verəndə şair "Amma bunu bacarmaram" deyə cavab verir.

Heç ölməyəcək kimi çalış, sabah öləcəkmiş kimi ibadət et!

(Hədisi-şərif)

Ümidsiz olmayın, çünki qeybi yalnız Yaradan bilir! Yalnız Ona təvəkkül edin! Acizliyinizi qəbul edib, şükr edin!

Bizlər yaxşılıq edib, ehtiyacı olanlara əl uzatmaqdan zövq alırıq. ...Amma bəziləri də əksinə – almaqdan zövq alır.

Molla Nəsrəddin suda batarkən ona əl uzadıb nə qədər "Əlini mənə ver!" deyirlərsə - verməyə yox almağa öyrəşən – Nəsrəddin əlini vermir.

Sonradan məntiq işlədib, ona "Molla, al əlimi!" dedikdə suda batan molla köməyə uzanan əldən yapışır.

Sağ əlin verdiyini sol əl bilməməlidir.

Verən əl alan əldən üstündür!

Mövlana deyib:

"İnsanlar gördüm üstündə paltar yox, paltarlar da gördüm ...içində insan yox"

Alçaq insanlar qüvvətlinin qarşısında qorxaq, zəifin qarşısında zalımdır.

İblis nədir, cümlə xəyanətlərə bais
Bəs hər kəsə xain olan insan nədir? İblis!

İnsan gözəl işlər görəndə mələklər: "Kaş ki biz də insan yaradılaydıq" deyirlər.

Bəni-Adəmin pis işlərini gördükdə isə ...insan yox, mələk yaradıldığına şükr edirlər.

İnsanın yaxşısı, insanlara faydalı olandır.

(Hədisi-şərif)

İnsan göydə ay kimidir; Görünməyən tərəfi var

Yerlərin-göylərin dərki ilə məşğul olan insan! Kaş ki, özünü də dərk edə bir an

İnsan nur istehsalçısıdır, çalışın nur istehsal edin.

İnsan var ki, namusuna öz pulundan ona çəpər çəkir, eləsi də var ki, əksinə puluna namusuyla çəpər çəkir.

İnsani-kamil yetişdirmək insana həyatda ən çox zövq verən duyğudur.

İnsanın yaradılışının məqsədi – onun kamilliyə çatması və bunun mükafatı olaraq sonunda Haqqı-həqiqəti bütün açıq-aşkar seyr etməsidir.

...Ya xeyir söylə, ya da sus!

AXMAĞIN CƏNNƏTİ – AĞILLI ÜÇÜN CƏHƏNNƏMDİR

Ata 2 oğluna 3 kisə qızıl verir və vəsiyyət edir ki, o öləndən sonra bu qızılların 2 kisəsini özlərinə götürüb, bir kisəsini də, dünyanın ən axmaq adamına versinlər. Ata öldükdən sonra oğulları atasının vəsiyyətini yerinə yetirmək məqsədilə dünya səyahətinə çıxırlar; ...nəhayət bir kəndə çatanda görürlər ki, kənd camaatı bir nəfəri şiddətli şəkildə təhqir edir.

Yaxınlaşıb, kənd camaatından onun kim olduğunu soruşurlar. Aydın olur ki, bu adam vaxtilə bu kəndin valisi olub, kəndin adəti belədir ki, yeni vali seçiləndə əvvəlki valini var gücləri ilə təhqir edirlər.

Bu cavabdan sonra onlar bu yolasalma "mərasimində" iştirak edən kəndin yeni valisinin yanına gəlib deyirlər ki, atamız bu bir kisə qızılı sənə vəsiyyət edib.

Vali təəccüb içində "Mən sizin atanızı tanımıram axı?!" deyir.

Onlarsa cavabında "Atamız bu qızılları dünyanın ən axmaq adamına verməyimizi vəsiyyət

edib. Əgər sən köhnə valinin bu dərəcədə təhqir olunduğunu görə-görə vali seçilməyi qərara alıbsansa, demək ki dünyanın ən axmaq adamı sən-sən!".

Önəmli olan mənəvi rütbəyə sahib olmaqdır!

Şeytanın ən böyük hiyləsi, özünün ortada olmadığına inandırmaqdır.

Ey insan sən fəxr etmə ki, cənnətə gedəcəksən, qoy cənnət fəxr etsin ki, sən ona qədəmlərini qoyacaqsan.

Görmədiklərinə inananın mükafatı, inandığını görməkdir.

Allahın aslanı Həzrəti Əlini (ə.s.) görənlər qətiyyən düşünməzdilər ki, ümmətinin imamıdır.

Etibar olmaz özün göstərən aşiqlərdə
Əhsən o aşiqə ki, cananı pünhanı sevir.

Bir insana verilən dəyər onun əxlaq və xasiyyəti ilə bağlıdır. Onun Həqq və xəlq qatındakı qiyməti – əxlaq və xasiyyətinin tərəqqi etməsi nisbətində olacaq.

Asanlaşdırın, çətinləşdirməyin!
Müjdələyin, nifrət etdirməyin!

Hazırda elm, siyasət və din dünyada sülh yarada bilməyirsə, deməli, onlara sahiblənən zümrə və şəxslərin çatışmayan cəhətləri vardır.

Bir millətin namusluları namussuzları qədər cəsarətli olmadıqca o ölkəyə qurtuluş yoxdur!

Söz – bəndə ilə Allahı bağlayan dəyərdir. Buna görə də etibarı yüksəkdir!

Bir mömin qum dənəsi kimidir, dağ başında olsa da, camaat dəyərindədir.

Əvvəl deyirdilər saqqalım yoxdur sözüm keçmir, indi deyirlər pulun yoxdur sözün keçmir.

Div qurbağaya aşiq olur. Onu tutub salır şüşə bardağa. Sonra yolda dayanıb gəlib-gedənə "Ən göyçək nə olar?" sualını verir. Yoldan keçənlərin hərəsi fərqli cavablar verir və div də onların cavabından sonra onları öldürür.

Nəhayət bir nəfər divin sualına "Könül sevən!" deyə cavab verir. Div bu cavabın sahibini sağ buraxıb mükafatlandırır.

Söylə o qara gözlərinə ən qatı düşmənə də, 40 gün sevgi ilə baxsan – 40-cı gün o da sənə sevgi ilə baxar...

Dünyanı sevgi xilas edəcək!

İnsan arzularının həyata keçməməsinin səbəbi çox vaxt insanın içində böyütdüyü qorxulardır.

İnsan bu qorxulara qalib gələ bilsə – bütün arzularına çatar.

Hər kəsin başına gəlib; bir işi (əslində həlli mümkün olan işi) həll edə bilməmək qorxusu bizi tərk etmədikcə – həqiqətən də məsələni həll etmək müşkülə çevrilir.

İnam – bütün qalibiyyətlərin birinci şərtidir. İnancınızla qalib sultan olacaqsınız!

Beş nəfərin ortaq pulu olur. Onlar, hərəsi öz dilində, bu pulla üzüm almaq istədiyini deyir. Amma bir-birlərini anlamadıqları üçün mübahisə edirlər.

Lakin, onların hamısının dilini bilən bir nəfər onların nə istədiyini tərcümə edəndə aydın olur ki, əslində, onlar hamısı üzüm istəyirmiş. Ona görə də biz, bütün insanların anlaya biləcəyi ortaq alfavit axtarırıq.

Hər bir millət öz uşaqları ilə başqa millətlərin uşaqları arasında hasar çəkiblər və onları başqa millətlərə qarşı yad, düşmən böyüdürlər. Lakin uşaqlar böyüyüb hasarın o biri tərəfinə baxdıqda, digərlərinin da özləri kimi insan olduğunu görürlər.

Bütün məxluqatı sevmədən, mərhəmət etmədən cənnətə girmək mümkün deyil!

Bir birimizi sevmədikcə iman etməmiş oluruq. İman etmədikcə də, cənnətə girməyimiz mümkün deyil.

Bir orduda bir neçə bayraq ola bilər, əsas odur ki bir orduda xidmət etdiyimizi anlayaq.

Ey insanlar! Unutmayaq ki, bugün, XXI əsrdə də suya, çörəyə möhtac, oynamağı- oyuncağın nə olduğunu unutmuş, kitab-dəftər görməyən, hətta aclıqdan ölən uşaqlar da var.

Onların günahı nədir? Onların fəryadı nə vaxt duyulacaq? Ey "İnsanlıq bəlalardan ölməsin!" deyən yer üzü sakinləri! Gəlin sülh uğrunda addımlarımıza birgə ataq, əl-ələ verib Sərhədsiz Dünya quraq, bərabərlik və sülh şəraitində yaşayaq.

Qədim zamanlarda
sərhədsiz imiş,
Sərhədsiz olacaq
yenə bu dünya!

Qarışqa həccə getmək istəyir. Ona, "Sən zəifsən, buna gücün çatmaz" deyirlər. Qarışqa isə cavabında "Heç olmasa bu yolda ölərəm" deyə cavab verir.

Dünyanın bir sıra ölkələrində insanlar pulunu öz heyvanlarına vəsiyyət edir. Biz isə onlara, pullarını

sülh yolunda xərcləməyi təklif edirik. Bizim quracağımız Qalib Sultanlar Sarayındakı liderlər, dünya ölkələrinə səfərləri zamanı, həm sülhü təbliğ edəcək, həm də həmin ölkələrin prezidentləri ilə görüşləri zamanı, onlara, eyni hədəfli Qalib Sultanlar Sarayını öz ölkələrində də tikməyi təklif edəcəklər.

Fondumuzun nəzdində 5 mərkəz (1. Beynəlxalq sülh və hüquq akademiyası; 2. Beynəlxalq Parlament Mərkəzi; 3. Xoşbəxt Ailə Mərkəzi; 4. Vücud Bağbanları Mərkəzi; 5. Ekoloji Təmizləyici Mərkəz) fəaliyyət göstərir.

Hər kəsin qiyməti, sevdiyinin qiymətinin dəyəri qədərdir. Arzumuz budur ki, yeganə sevginiz Yaradana olsun.

Yığdıqların sənin deyil, verdiyin sənindir bil.

TÜRKİYE CUMHURİYETİ CUMHURBAŞKANI
Sayın Abdullah GÜL

Zat-i Alilerinizi sevgi ve saygılarımızla selamlıyoruz.

Yüksek malumlarıdır ki, bugün bütün beşeriyet insanlar arasında sülhün bergarar olması için arayıştadır. Çünkü üç günlük misafirhane olan dünya'da bütün paralar silahlara gidiyor, hergün cinayetler, işleniyor. insanlar aç perişan rezil ve ihtibarsız ediliyor. Hatta sayısız suçlarla karşılaştı-ğından'da toplum korku - tehdit ve tedirginlikle güvenlik araçlarına yönelmiştir. O kadar ki özel güvenlikçilerin sayısı polis sayısını geçmiştir.

Başta Türkiye ve Azerbaycan iki kardeş ülkenin öncülüğünde tüm dünyanın barış, kardeşlik ve huzur ortamına kavuşması amacını taşıyan 'Ideal Barışın Tebliği' Vakfı dünyada ideal barışın hakim olması için bütün potensiyelini seferber etmiş insanların gönüllü birliğidir. Bu gönüllü birlik "Muhabbet Mülkü Sultanları"nın evidir. Temelini sevgi, duvarlarını sadakat, pencerelerini iyi niyet, kapılarını hürmet, damını itibar ve güven ile örecegimiz bir dünya kurmaya çalışmak en büyük gayemizdir. Tabii ki, bu mukaddes niyetlerimiz;

Yunus Emre'nin, Mevlana'nın ve Hacı Bektaş-ı Veli'nin, Atatürk'ün, Mirza Ali Ekber Sabir'in, Hüseyin Cavit ' in ve sair büyük dahilerin arzu ve örflerinin devamıdır.

Hüseyin Cavid yazır **:**

Kesse her kes dökülen kan izini,
Kurtaran dahi odur Yer yüzünü !

Almanya Anayasası; "Allahın ve insanların karşısında mesuliyyeti idrak ederek" sözleri ile başlıyor. ABD dollarının üzerinde de "biz Allaha güveniyoruz" yazılmıştır. Bizim de şiarımız benzerdir. **Yaradanımıza güveniyoruz, yaradılanı Yaradandan ötürü seviyoruz!**

İnsanlığın faciası cahilliktir. Kendisi hakkında yeterli bir fikir sahibi olmadığı halde insanın bir düşünce uğrunda savaşması, yapacağı en tehlikeli şeylerden biridir.

Bizim isteğimiz Yaradan'ın mukaddes yarattığı insanın büyük, pak, mükemmel insanlığa dönüşüne mutlu ve refahlı yaşamasına ve kendini tanıyıp sorumluluklarının bilincinde olmasına hizmet etmektir. Çünkü insan tanımadığının düşmanıdır.

Yaradanın katında öyle kullar vardır ki, peygamberler ve şehitler onlara gıpta ederler. Bu

kullar, insanlar arasında sevgi, dostluk ve bariş kuranlardır.

Gelecek nesillerin barış, kardeşlik, dayanışma hisleriyle yetişmesi için Vakfın nezdinde din ve ırk ayrımı yapmadan 10-15 yaşındaki çocuklardan ibaret, "Sınırsız Dünya uğrunda" mücadele yürüten bir "Uluslararası Parlamento Merkezi" kurduk. Çocuklarımız bizden daha iyi yaşanabilir, savaşsız, müreffeh bir Dünya istiyor; acı, savaş, ölüm ve açlık değil! Bu sebeple, hepimizin üzerinde büyük bir sorumluluk vardır.

Vakfımız, insanları birliğe ve barışa çağıran, birbirlerine hoşgörüyle davranmalarını tebliğ eden yeni barış modeli- hakkında "İnsan !!!???...X'' adlı, ve ''Altın Çağın Çocukları'' adlı kısa filmler çekmiştir.

Muasır Dünyanın en büyük belalarından biri olan teröre ve savaşa karşı çıkan güçlerden önde gelenlerinden biriyiz. Bizim gibi insanlar her yerde var, her zaman olmuş ve bundan sonra da olacak. Bunun için Türk Dünya'sının Ulu Önderleri ATATÜRK ve HAYDAR ALİYEV ilkelerinde büyüyen "Uluslararası Parlamento Merkezi"nin sulhsever lider uşakların 12 nümayendesinin AZERBAYCAN hakikatlerini ve vakfın felsefesini dünya Prezidentleri ile görüşüp çattırmak meramı ile

‘’bugünün ve yarının sulh carcıları ‘’adlı projesi hazırlanmıştır.

İstiyoruz ki ‘’yurtta sulh cihanda sulh’’ ilkesi, ilk defa Türkiye’den nasıl çıkmışsa, zat-i aliniz de barış amacıyla, yine ilk defa Ermenistan’a tarihi sefer ettiyseniz, vakfın barışsever lider uşaklarını kabul buyurup tavsiyelerinizi lütfetmekle ilk defa dünyada örnek barış seferberliği, sayenizde Türkiye’den başlamış olsun

DERİN HURMET VE İHTİRAMLA

İDEAL BARIŞIN TEBLİĞİ VAKFI
KURUCU BAŞKAN Alikram MUZAFFER

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm cənab Prezident, öncə Sizi Azərbaycan xalqının növbəti dəfə yüksək etimadını qazanaraq ölkə Prezidenti seçilməyiniz münasibəti ilə təbrik edir, dövlətimizin və millətimizin gələcək uğurları naminə Sizə müvəffəqiyyətlər arzu edirik.

Ulu Öndərimiz Heydər Əliyev müasir Azərbaycanın memarı olmaqla xalqın qəlbində əbədi taxt qurdu, Sizin də belə bir nailiyyət qazanmanızı arzulayırıq.

Sizə daha çox məlum olduğu kimi, bugün bütün bəşəriyyət – insanlar arasında sülhün bərqərar olması üçün –axtarışdadır. Bəşəriyyət, yaranandan bəri bu istəkdə olub. Artıq həmin arzu zəruriyyətə çevrilib.

Bu o deməkdir ki, həmin günün vaxtı çatıb və insan – İNSAN adına layiq cəmiyyətdə yaşamalıdır.

Azərbaycan rəhbərliyinin mədəniyyətlərarası dialoq sahəsində ardıcıl təşəbbüsləri beynəlxalq aləmdə layiqli rezonans doğurub. Bu gün çağdaş dünyanın qarşısında duran ən mühüm

problemlərdən biri fərqli sivilizasiyalar, dinlər, mədəniyyətlər arasında anlaşmanın, əməkdaşlığın optimal yollarının tapılmasıdır.

"İdeal Sülhün Təbliği Fondu" dünyada ideal sülhün bərqərar olması üçün bütün potensialını səfərbər etmiş insanların könüllü birliyidir.

Gələcək nəsillərin sülhsevərlik, qardaşlıq, barış hisslərinin qucağında böyüməsi naminə Fondun nəzdində milliyətindən, inancından asılı olmayaraq 10-15 yaşlı uşaqlardan ibarət "Beynəlxalq Parlament Mərkəzi" yaratmışıq və dünya ölkələrində bu Mərkəzi yaratmağı düşünürük. Fond İnsanları birliyə, sülhə çağıran, bir-birilərinə qarşı xoşgörüylə və səmimiyyətlə davranmalarını təbliğ edən - yeni **Sülh Modeli** barədə "*İnsan!!!???...X(iks)*" adlı üç hissəli sənədli film çəkib və "Altun çağın cocukları" adlı bir neçə dildə tanıtım çarxı hazırlayıb. Bundan əlavə Fondumuz tərəfindən "Tək bir yol var - Onun yolu", "Mən fəxr edirəm ki, Azərbaycanlıyam!", "Только лишь Один Он" adlı sənədli filmlər çəkilmişdir.

Almaniya konstitusiyasının preambulası *"Tanrının və insanların qarşısında məsuliyyəti dərk edərək"* sözləri ilə başlayır. ABŞ dollarının üzərində də ***"Biz Tanrıya güvənirik"*** yazılmışdır. Bizim də

şüarımız oxşardır: **"Yaradanımıza güvənirk, yaradılanı Yaradandan ötrü sevirik!"**

Təməlini sevgi, divarlarını sədaqət, pəncərələrini xoş niyyət, qapılarını hörmət, damını etibar ilə hörəcəyimiz bir dünya qurmağa çalışmaq ən böyük əqidəmizdir.

Möhtərəm cənab Prezident!

Bu günə qədər gördüyüm işlərdə heç bir dəstək almamışam. Bu filmlər Azərbaycançılıq fəlsəfəsini, bəşəri hissləri, Heydər Əliyev ideologiyasını, Azərbaycan həqiqətlərini dünyaya yaymaq üçün çox gözəl bir vasitə olduğunu düşünərək, Sizdən xahiş edirik ki, bu filmlərin bir neçə xarici dilə tərcümə edilməsi və əlaqədar təşkilatlar vasitəsi ilə dünyaya yayılması, bununla da ideyanın gənclərimiz, həmçinin də beynəlxalq aləmdə yayılması üçün bizə köməklik göstərəsiniz.

Öncədən Sizə minnətdarlığımızı bildiririk.

Hörmətlə,

Fondun İdarə Heyəti adından
təsisçi və və rəhbəri **Alikram Müzəffər**

Ssenarist Əlikram Müzəffərin "Odla suyun öpüşdüyü ölkənin uşaqlarının dünyaya mesajı: BU DÜNYANI DƏYIŞMƏYƏ GƏLMIŞIK!" layihəsinə

RƏY

Ssenari aktual və əhəmiyyətli mövzuya "altun çağ" - "sərhədsiz dünya" probleminə həsr olunmuşdur. Layihədə "Sülhə nail olmaq üçün nə etməli?" sualının cavablandırılmasına cəhd edilir. Müəllifin mövqeyi orijinal olmaqla yanaşı, olduqca ibrətamizdir. Saflığın, səmimiyyətin rəmzi olan uşaqların adından terror, müharibə, var-dövlət hərisliyi girdabında çapalayan böyüklərə müraciət olunur. Ə.Müzəffər Hüseyn Cavidin (1882-1941) ("Kəssə hər kəs tökülən qan izini - Qurtaran dahi odur yer üzünü"), Heydər Əliyevin ("Allahın yolunda hamımız bir olaq!") səsləndirdikləri ideyaların reallaşdırılması istiqamətində təqdirəlayiq addım atmışdır. Layihədə nəinki uşaqların, eyni zamanda böyüklərin də sülh naminə bilməli olduğu əsas bəşəri anlayışların (Yaradan, insan, din, iman, inam, dostluq, sevgi, elm, cəhalət, ibadət və s.) dini-etik, sosial-fəlsəfi izahı verilir.

Layihə ilə əlaqədar bir təklifim vardır. Düşünürəm ki, "Odla suyun öpüşdüyü ölkənin uşaqlarının dünyaya mesajı: bu dünyanı yaşatmağa gəlmişik!" mövzusu layihənin məzmununu daha doğru ifadə edərdi. Çünki layihə dünyanı deyil, insanların dünya ilə bağlı neqativ düşüncələrini dəyişmək, pis niyyətlərin, mənfi stereotiplərin, neqativ ünsürlərin qarşısını almaq, cəmiyyətdə fərqli mövqe və baxışlar formalaşdırmaq məqsədini daşıyır.

Layihənin aktuallığını və nəzəri-praktik əhəmiyyətini nəzərə alaraq, tezliklə həyata keçməsini arzu edirəm. Rəyim müsbətdir.

AMEA Fəlsəfə, Sosiologiya və
Hüquq İnstitutunun Dinşünaslıq
və mədəniyyətin fəlsəfi problemləri
şöbəsinin böyük elmi işçisi fəlsəfə doktoru
İ.Z. Zərqan

MÜSAHİBƏ

Salam, mən Əliikramam.

Bizim müsahibimiz İSTF-un Beynəlxalq Parlament mərkəzinin Rusiya üzrə koordinatoru Hüseyn İbrahimdir. 6 saylı məktəbin 7-ci sinif şagirdidir.

- Salam Cənab İbrahim.

- Salam

1. Siz təsadüfən Barak Hüseyn Obama ilə qohum deyilsiniz?

İbrahim: Zatən bizim fondumuzun əsas məqsədi dünyada bütün insanlarin bir-birinə qohum olduğunu göstərməkdir. Buna görə Qalib Sultanlar saytında hər kəsin soy ağacını qoymaqla insanların bir-birinə qohum olduğunu göstərmək istəyirik. Allaha inananlar bilir ki, bizim soyumuz Adəm Peyğəmbərdən gəlir, inanmayanlar da, yəni insanın meymundan yarandığını düşünənlər də, eyni kökdən gəldiklərinə görə qohumdurlar.

2. Qalib sultan deyəndə nəyi nəzərdə tutursunuz?

İbrahim: Bizim Fondumuzun Müzəffər formulunu qəbul edən, yəni, mənəviyyatın maddiyata qalib gəlmə formulunu qəbul edən və əməl edənlərə qalib sultanlar adı veriləcək.

3. Bu ideyanı necə təbliğ etməyi düşünürsünüz?

İbrahim: Bildiyiniz kimi indi internet əsridir, istənilən informasiyanı qısa zamanda dünyaya yaymaq olur. Biz bütün dünyada beynəlxalq parlament mərkəzini açacağıq və həmfikirlərimiz ilə bu ideyanı dünyaya yaymaq istəyirik.

4. Azərbaycan torpaqlarının 20%-i işğal altında, 1 000 000 qaçqını olduğu halda siz necə sərhədsiz dünya yaratmaq istəyirsiniz?

İbrahim: Bu layihə ilə bizim ilk növbədə birinci vəzifəmiz Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə doğru və düzgün çatdırmaqdır. Bildiyiniz kimi, bizim Parlament mərkəzinin uşaqlarının yaşı 10-15 arasındadır. Uzun müddətli layihəmizə görə indiki uşaqların 2035-ci ildə 35-40 yaş arası olacaqlar və indiki hakimiyyətdə olanlar qocalacaqlar və bizim sülh sevən lider uşaqlar böyüyüb sərhədsiz dünya yaradacaqlar.

5. Sizə belə gəlmirki bu düşüncələriniz xəyali və gülüncdür. Çünki peyğəmbərlər belə bunu bacarmayıb, bəs siz?

İbrahim: Siz çox gözəl sual verdiniz, çünki Quran-i Kərimdə Yasin Surəsində deyilir ki: "Vay bu bəndələrin halına, onlara elə bir peyğəmbər gəlmirki, ona istehza eləməsinlər." Biz də bunun fərqindəyik.

Bildiyiniz kimi bütün Peyğəmbərlərə istehza olunub, təhqirlərə məruz qalıblar, hətta İsa Peyğəmbər (ə.s.) çarmıxa çəkilib. Yeri gəlmişkən bəzi insanlar düşünür ki, İsa (ə.s.) xristianlığı təbliğ etmək üçün göndərilib. Əslində bütün peyğəmbərlər tək bir yaradanı təbliğ etmək üçün gondərilib. Bizim düşüncəmizə görə insanlığın faciəsi cahillikdir. İnsan özü haqqında bir düşüncə sahibi olmadığı halda başqasının düşüncəsi uğrunda terrorlar, müharibələr edir. İnsanın beynində trilyonlarla hüceyrə var və hər hüceyrə 72 000 funksiyaya malikdir. 1-dən 1 milyarda qədər saymaq üçün 165 il zaman lazımdır. İnsan üç ömür müddətinə milyarda qədər saya bilir. Yəni, insan özünü bu qısa ömür müddətində tam tanıya bilmir və tanıya da bilməyəcək və Yaradanı da buna görə tanıya bilmir. Çünki, bizim ağlımız məhduddur. Yaradan isə sonsuzdur, zaman və məkan daxilində deyil. Yəni sonsuzluğu sonlu olan ağıl ilə idrak etmək mümkün deyil. Buna görə də bizim Qalib Sultanlar Sarayı layihəmiz var və bu layihədə biz hər şeyi açıqlamışıq. Qalib Sultanlar Sarayinda Müzəffər formulunu qəbul edən və Altun Çağın Sülh sevən liderlərini himnini qəbul edib və əməl edən sülh sevən liderlər yetişdiriləcək və onun həndəsi silsilə ilə artdığını göstərmişik.

Bütün bunları www. qalibsultanlar.com saytından daha ətraflı öyrənə bilərsiniz.

6. Bu günün və sabahın sülh carçıları layihəniz barəsində nə deyə bilərsiniz?

İbrahim: Bu layihədə ulu öndərlər Heydər Əliyev və Atatürk əxlaqında sülh sevən lider uşaqların dünyanın liderləri ilə görüşləri nəzərdə tutulmuşdur. Ondan başqa dünyada məşhur müğənnilər, idmançılar və iş adamları ilə görüşlər nəzərdə tutulub. Bu görüşlərdə ilk növbədə Azərbaycan həqiqətləri və fondun fəlsəfəsini onlara çatdırmağı düşünürük. Eyni zamanda o ölkələrdən uşaqları bizim doğma Azərbaycanımıza dəvət edəcəyik.

7. Müzəffər formulundan daha ətraflı danışa bilərsiniz?

İbrahim: Qısaca onu deyə bilərəm ki, bizim təklifimiz budur: Gəlin insanı, sevgini, yaradanı bir sirr olaraq qəbul edib, bir-birimizə xoşgörü ilə baxaq. İnananlar və inanmayanlar arasında min illərdir ki, insanın və kainatın yaradılışı haqqında mübahisə, münaqişə və müharibələr edilir. Bizim Təklifimiz dərk olunana qədər bunları bir sirr olaraq qəbul etməkdir. Biz zatən bunu Altun Çağın Cocuqları adlı tanıtım çarxında bir neçə dildə çəkib, veb

səhifəmizdə yerləşdirmişik. Nəyə görə biz uşaqlar böyüklərin cahilliyinə və cinayətinə gorə cavab verməliyik?

8. Siz bu böyük işlərin öhtəsindən necə gəlməyi düşünürsünüz? Kimə güvənirsiniz?

İbrahim: İlk növbədə biz uca Yaradana, TƏK BİR Ona güvənirik. Bu saat hər kəs qızıl əsrdən və indiqo uşaqlardan söhbət açırlar. Bildiyiniz kimi Azərbaycanın müstəqilliyini hər bir azərbaycanlı arzulamışdır. Amma bu müqəddəs arzunu ulu öndərimiz Heydər Əliyev həyata keçirmişdir və indi Cənab Prezident İlham Əliyev onun siyasi kursunu layiqincə davam etdirir. Biz də istəyirik ki, necə ulu Öndərimiz müstəqilliyimizi bərpa etməklə tarixə düşdüsə, bizim Cənab Prezident İlham Əliyev dünyada bu sülh uğrunda aparılan işlərə rəhbərlik etsin və tarixdə öz yerini tutsun. Bundan əlavə Heydər Əliyev fondunun prezidenti, UNESCO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili və Azərbaycanın birinci xanımı, uşaqların sevimlisi Mehriban xanım Əliyeva bu işi zatən çoxdan başlamışdır və uğurla davam etdirir. Biz fəaliyyətimizdə onların öndərliyinə və himayəsinə arxalanırıq.

Çox sağolun İbrahim müəllim. Sizə bu bəşəriyyətə çox lazım olan sülh sevər işlərin aparılmasında və həyata keçirilməsində uğurlar arzulayıram. Allah yardımçınız olsun. Və biz bütün sülh sevər insanları bizimlə əməkdaşlıq etməyə çağırırıq. Müsahibənin sonunu Ulu Öndərimizin sözləri ilə bitirmək istəyirəm: "Qoy ədalət zəfər çalsın!", "Azərbaycan dünyaya Günəş kimi doğacaq!" Sağolun.

Müsahibəni apardı:

İSTF-in Beynəlxalq Parlament mərkəzinin
mətbuat xidmətinin rəhbəri, 187 saylı
məktəbin 10-cu sinif şagirdi
ƏLİİKRAM ƏLƏKBƏRZADƏ

FONDUN HİMNİ

İNSAN – TƏK BİR O-nun sirri! O – insanin sirri!

O-ndan gəlib O-na dönəcəyik!

Bu sirri etiraf et ki, qalib sultanlardan olasan.

Ruhun həqiqəti açılana qədər, gəlin, onu bir sirr olaraq qəbul edib bir-birimizə sevgi ilə baxaq!

Tək bir yol var – Onun yolu sevgi yolu!

Buna görə də: millətimiz – insan, yurdumuz – cahandır! Biz qalib sultanlarıq!!!

İnsanlığın qurtulusu üçün O bizə yetər vəkilimiz O-dur! Hakimimiz O-dur!

Qədim zamanlarda sərhədsiz imiş, sərhədsiz olacaq yenə bu dünya. Əgər sən istəsən, o …bir xəyal deyildir!

Zəfər O-na İnananlarindir!
Eşq bütün kainati əhatə edən Tək Bir O-dur.

Tək bədən və duyğulardan ibarət olduğunuzun anlayışını tərk edin!

Sən ONU necə düşünürsənsə düşün, O – O-dur!

O, ən üstün həkimdir! ŞƏFA O-nu anmaqdadır!

O- aləmlərə sığmaz, lakin aşiqlər qəlbində yer tutar! O həm çox uzaqda, həm də olduqca yaxındadır!

Bir damla ...sonsuzluqda gizlidir, sonsuzluq bir damlada gizlidir…

Dedilər: O haradadır? Dedim: Qürbətdə, qürbətdə!

Dedilər: Qürbət haradadır? Dedim: Qəlbimdə, qəlbimdə...

Kəssə hər kəs tökülən qan izini
Qurtaran dahi odur yer üzünü

Hər kəsin qiyməti, sevdiyinin qiymətinin dəyəri ilə ölçülür.

Özünü TƏK BİR O-na təslim etmək bu - QƏLƏBƏDİR!

SİZƏ TƏK BİR O-nu sevməyi və mələklərdən üstün olmağı arzulayıram!

Nəqərat:

Gəlin bir yerdə deyək «TƏK BİR O», «YOXDUR O ndan BAŞQASI». Asanlaşdırın, çətinləşdirməyin! Parolumuz da «TƏK BİR O» olsun.

BİSMİLLAHİ-R-RƏHMANİ-R-RƏHİM
TƏK BİR O-na İNANANLARIN ALƏMİ

Hədis: Allahı yaradıcı bilən, Məhəmmədi (s.a.v) Peyğəmbər olaraq qəbul edən, din olaraq İslamı seçən kimsə... imanın dadını alır.

Bu hədisdə bildirilən hal bir zövq işidir; Haqqa bağlılıqdan doğar. Bu bağlılıq da Allahı bilməkdir. Bu bilgi isə mərifətdir.

Bu mərifət bir nurdur. Allah sevdiyi qullarının qəlbinə yerləşdirir. Bundan daha uca, bu nurdan daha böyük bir şey yoxdur.

Çünki mərifət nurdur. Mərifətin həqiqi mənası isə qəlbin yaradıcı ilə həyata qovuşması deməkdir.

Müdriklər mərifət əhli haqqında deyir:

Haqdan başqası qulun gözündən silinir. Yalnız haqqı bilirsə, mərifətə ərər, ərdiyini bilir.

Qəlbi Allaha bağlı olan dünyaya baxmaz. Axirəti də bilməz. Arifin qəlbindəki nur günəşdən parlaqdır.

Mərifət qəlbə yaxın olana – Allaha yaxınlıqdır. Hər şeyi buraxıb, hər şeyi bilən və eşidən sultana – Allaha dönməkdir.

Görünüşü dəlilik, şəkili bilgisizlik, mənası çaşqınlıqdır.

Arif olan yalnız Haqq elmi ilə çalışır. Başqasını bilməz. Xalq ona baxınca:

– Cahildir. – deyir. Lakin o, daima bir haqq heyranlığı içindədir. Xalq ona:

– Bu dəlidir. – deyir. Amma arif olan Allah sevgisini bilir. Onun içi haqqın cəlalı sevgisi ilə doludur. Ona baxanlar qorxuya düşürlər.

Mərifət Aləmində xəbər verməyə heç kimin gücü çatmaz. Çünki mərifət haqq vergisidir: bilən ona gedər.

Arif olan bilir ki, Haqq Taala, bütün halını bilir. Arif həm ölü, həm diridir. O böyük görünəndir, həm də görünməyəndir.

Ariflər nəfslərini haqq varlığı önündə yox etmişlər. Haqqa qarşı gücləri, qüvvətləri yox olmuşdur. Əgər onları var görürsən, o varlıq Haqqdandır. Malın sahibini

bilirlər mülkə qiymət verməzlər. Onların zənginliyi Haqqla olur.

Hədis: Əgər Haqqa qarşı tam irfan sahibi ola bilsəydiniz. O irfandan sonra cəhlə və bilgisizliyə yer olmadığını anlardınız. Dağlar çağırışınızla yerlərindən oynardı.

Mərifət yoluna girən az sözlü olar. Sonsuz heyrət və fikir içində olur. Haqqın birliyinə keçmək istər. Hər halı buraxır. Bütün halların sahibinə bağlanır.

Arif halını anladarsa, həlak olur. Susarsa, yanar.

Onlar xalqa nəsihət edərlər. Amma bu nəsihətlərdə onlardan bir şey ummazlar.

Onların məqsədləri, Haqqın əzəmət dəryasıdır. Arzuları da saflıq və təmizlik ümmanıdır.

Onlar dünyaya qiymət vermədən baxarlar. Axirəti ürəkdən gözləyirlər. Nəfslərinə qiymət verməzlər. Onlar qulluq edərkən qüsurlarını görürlər. Buna görə də ibadətləri gözlərində böyüməz.

Onları nəfsləri islah olmuş və dünyanı buraxmışlar.

Cəfa onlara dad gəlir. Onların halları dünyada qəribdir. Sinələrində döyünən qəlbləri qəribdir. Qəriblik dərdi onlara rahatlıq vermir. Bu qəriblik və zavallılıq Haqqa qovuşuncaya qədər davam edər.

Onların işləri əcaibdir. Mövla onlara təbibdir. Danışmaları içdən gəlir.

Əgər bunların aləmini biri, əsil varlıqları ilə görsə düşər, ölür. Cahil onları bilməz. Onların işinə cahilin ağlı ərməz.

Onların dünyada bir çox əlamətləri var. Başlıcası bunlardır. Bəlanı çox qəbul edərlər. Hüznlər onlara rahatlıq verir.

O böyük insan xarici görünüş ilə insanlarla keçinir. İçində isə Allahla olur.

Əziz odur, zəlil odur, kasıb odur, zəngin odur.

Onları nə dünya əhli tanıyır, nə də axirət əhli. Onları ancaq Allah tanıyır.

Onları yalnız Allah görür və yalnız o bilir. Onlar Allah qatında qiymtli və dəyərlidirlər.

Heç kimin qəlbinə gəlməyən hikmətli sözlər onun dilindən tökülür.

Qəlb vücüd içində bir köşkə bənzəyir. Mərifət isə oranın sultanıdır. Ağıl isə oraya validir. Bütün vücud ağıla uyar. Dil o aləmin tərcüməçisidir. İnsandaki sirr isə Rəhmanın xəzinəsidir.

Baxanda daima bir hüzn içindədirlər. Ölüncəyə qədər bu halları davam edər.

Hədis: Vücudda bir ət parçası vardır. O, təmiz olduğu halda bütün vücud yararlı hala gəlir. O, pozulduğu zaman isə bütün vücud fəsad olur. O ət parçası qəlbdir.

Ruhlarının ehtiyacı sevgidir, məhəbbətdir.

Qəflətdə olanlar güldüyü zaman ağlayırlar.

İrfan sahiblərinin başda gələn nişanı göz yaşıdır. Hallarını düşündükcə gözlərindən sellər kimi yaşlar gəlir.

Hədis: Bir ümmət içində Allah üçün ağlayan bir kəs olsa, onun hörmətinə bütün ümmətə Allah-u Təala rəhməti ilə təcəlli edər.

Onlar Haqqın sevgisini alırlar. O`nun gözəl dəvətini eşidirlər. Bundan sonra ağılları uçar, qəlbləri ona qaçar.

Küdsi Hədis: Bəla sevdiyim qullara, bir sel axıntısından daha tez çatır.

Dünyadan ayrılıq sözü edilsə çox xoşlanırlar.

Əgər Allah sevgisiylə içi yananlar üçün müəyyən bir zaman olmasaydı Allahı andıqları an ölərlər.

Bütün hərəkətlərini Allah yolunda edərlər və o uğurda son nəfəslərini verirlər.

Hər an ölümü gözləyirlər. Bu gözləmə bir sevgilinin sevgilisinə qovuşmağı gözləməyi kimidir.

Onlara bu dünyada çox qalmaq ağır gəlir. Bu dünya onlara bir zindandır. Buradan köçənə qədər rahat olmurlar. Bu aləmdən köçmək arzuları susuz insanın suya duyduğu arzudan daha ucadır.

Dünyadan ayrıldıqları zaman dünya və əhlinin əza və cəfasından qurtulur.

Sevənin ölümü, sonu olmayan həyatdır.

YARADILAN! YARADANIN YARATDIĞINI YAŞAT!...

Dünya dövlət başçılarına, parlament üzvlərinə, hər bir səviyyədə siyasi fəaliyyət göstərən xadimlərə İdeal Sülhün Təbliği fondunun Beynəlxalq Parlament Mərkəzininin

MÜRACİƏTİ

Cənablar, bəşər övladı yerdə insan kimi yaranıb. Dinlər, tayfalar, millətlər sonradan yaranıb və nadanların nəfsindən düşmən mövqedə dayanıblar. Tayfa və xalqlar texniki imkansızlıqdan əsrlərlə bir-birindən xəbərsiz yaşayıblar və iqtisadi zərurətdən qarət məqsədilə digərinə hücum edib.

Təəccüb, heyrət doğuran budur ki, bütün bunlar insan təfəkküründün, elmi və texniki tərəqqinin heç olmadığı, zəif olduğu əsrlərdə baş verib. XX əsrin ikinci yarısından televiziya və bu kimi insanları bir-birinə yaxınlaşdıran, dünyanın bu başı ilə o başını bir anda birləşdirən, bəşəri sözün insanlara çatdırılması üçün saniyələr, dəqiqələr bəs etdiyi, bəşər övladının az qala 60-70 faizinin yüksək təfəkkürə, elmi səviyyəyə çatdığı bir vaxtda da yerin, göyün, insanın səadətini unudan, ayrı-ayrı dövlət başçılarını, siyasi xadimləri müharibəyə, insan

ölümünə, bəşərin əsrlərlə yaratdığı abidələri, şəhərləri bir anda yox etməyə sövq edən nədir? Siz böyüklər insanın, kainatın yaranışı, gələcəyi haqda, ortaq fikrə gələ bilmədiyiniz halda bizlərin arasında çaşqınlıq yaradır, düşmən cəbhələrə bölürsünüz. Biz insanlığa təklif edirik ki, bütün bunları kim necə qəbul edirsə etsin, əqidə, məqsəd, bəşəri birliyə nail olaq. Bu gün biz uşaqları narahat edən siz böyüklərin qeyri-insani fəaliyyətidir. Biz uşaqları, bu gün yaşadığımız dünyanın, insanın, kainatın, sülhün qorunması düşündürür. Bu gün Azərbaycanda, İraqda, Fələstində , Əfqanıstanda və dünyanın müharibə püskürdüyü digər ölkələrdə ölən uşaqların günahı nədir? Siz böyüklərə inanmalarımı?

Məhəlləmizdə, küçəmizdə, kəndimizdə, şəhərimizdə bir-biri ilə dalaşan kiçiklərə, böyüklərə dəli, ağılsız deyirlər. Bu balaca dalaşmalar biz uşaqların qəlbini qırırsa, ölkələrin, xalqların müharibəsi, bir xalqın digər xalqa təcavüzü biz uşaqları necə dəhşətə gətirdiyini təsəvvür edirsinizmi? Düşünürük ki, əgər məhəllə və küçəmizdə dava edənlərə "dəli" deyirlərsə, onda ölkələrarası, dünya müharibələri edən siz rəhbərləri biz uşaqlar necə adlandırsın?

Biz televiziya ekranlarından eşidir, internet səhifələrində oxuyuruq ki, filan ölkənin filan qədər nüvə silahı var, hərbi məqsəd üçün filan qədər büdcəsi var. Bunlarla yanaşı ayrı-ayrı ölkələrdə səfalətdə yaşayan, acından ölən minlərlə böyüklər və uşaqlar var.

Bu silahlanma bəhsəbəhsi bu dünyanı, bəşəri hara apardığını düşünürsünüzmü, böyüklər?

Biz istəyirik ki, yaxın illərdə silahlanmaya, orduya, dağılıb yenidən qurulan şəhər, kənd və bəşər abidələrinin bərpasına sərf olunan milyardlar dünyanın çiçəklənməsinə, bəşərin tərəqqisinə, səadətinə sərf olunsun. Bizi eşidin, böyüklər. Arzularımızı reallışdırmaqda bizə arxa olun ki, sizin görə bilməyib qəlbinizdə arzu kimi yaşatdıqlarınızı biz əməli işə çevirək.

Hardasa, kiminsə iti, pişiyi harınlayır, pul qoymağa yer tapmırsa, hardasa ac varsa, bir dahi ehtiyac içində yaşayırsa, bu insanlıq üçün faciə və başıaşağılıq, ləkə deyilmi?

Əgər hamı insandırsa, nə üçün hamı insan kimi yaşamamalıdır? Nə üçün o, biri-birinə düşmən dinlərə, tayfalara, xalqlara bölünməlidir? Hamımız yer övladıyıq. Adəm, Həvva nəsliyiksə, deməli, biz bacı və qardaşlarıq. Nə üçün yadlaşmışıq? Elm, alimlərimiz insanın xəstəliklərindən qorunmasına, ömrünün uzadılmasına çalışır. Siyasətçilər isə onu, onun yaratdıqlarını məhv edir.

Azərbaycanda beynəlxalq parlament mərkəzini yaratdıq ki, biz nəsil sizlər kimi davakar, tamahkar, tayfabaz, ölkəbaz olmasın. "Mən! Mən!" iddiası ilə yaşamasın. Sizdən sonrakı nəsillər insanı böyük mənada

əsl insan kimi qiymətləndirsin. Onu dərddən, azardan, bəlalardan, müharibələrdən azad etsin. Sərhədsiz dünya, dindən, təriqətindən, millətçilikdən uzaq, bəşəri qanunlarla idarə olunan, yaşayan bəşər övladı tərbiyə etməyi bacarsın. Bizim parlament üzvləri bu gün 10-15 yaş arasındadır. İstəyirik ki, dünya insanlıq məhəbbətinə, mərhəmətinə bürünsün. Nəyə görə digərindən fövqəladə fərqi olmayan kimsə hər şeylə hədsiz dərəcədə təmin olunsun, kimi də onun kölgəsi kimi sürünsün.

Biz bütün dünya ölkələrini gəzib müxtəlif xalq və din nümayəndələrinin təmsil olunduğu parlamentlər yaradacağıq. Bu parlament üzvləri ideyalarımızı ölkələrinin bütün məktəblərində, televiziya ekranlarında təbliğ edəcəklər. Dünyanın belə parlament üzvləri çalışacaqlar ki, bütün təhsil sistemi elə qurulsun ki, uşaq və yeniyetmələr öz milli adət və ənənələri üzərində bəşəri ruhda böyüsünlər. Dünya təfəkkürlü insan əlvanlığı ilə bərq vursun. Həyata saf və müqəddəs gələn insanı həyat eybəcərləşdirə bilməsin. O, ömrünün sonuna kimi müqəddəs yaşasın və insan amilini ucaltsın. Dünya, bəşər övladı rahat nəfəs alsın.

Bu gün 10-15 yaşında olan bizim yaşıdlar 30-40 yaşında prezident, ölkə parlamentlərinin rəhbəri olanda sizlər kimi müharibə, təcavüz hisslərindən uzaq olsunlar.

2035 –ci ilədək sərhədsiz, müharibəsiz dünya, vahid bəşər övladı kimi yaşamağa nail olaq. Yaşından, milliyyətindən, inamından asılı olmayaraq, bütün insanları bizim parlamentə dəvət edir və onlardan təkliflər, əməli fəaliyyət gözləyirik.

2035-MİLLƏTİMİZ İNSAN, YURDUMUZ CAHAN!!!

İdeal Sülhün Təbliği Fondunun
Beynəlxalq Parlament Mərkəzi

İNSANLARA ÜNVANLANMIŞ DAXİLİ DİNİ XİTAB TƏRZİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Mədəni plüralizm və yeknəsəksizliyi qəbul edən, mədəni müxtəliflik hüququnu tanıyan, xalqların mədəni xüsusiyyətlərinə ehtiram göstərən, digər mədəniyyətlərlə birgə yaşamağa, əməkdaşlığa hə deyən beynəlxalq abu-havanın yaradılması üçün dialoq ilk şərtdir. Ümumdünya əxlaq sisteminin yaradılmasında mədəniyətlər arası dialoqun əhəmiyyəti xüsusi ilə mühümdür. Dialoq həqiqətin axtarılmasında ilk mərhələdir. Tədqiqatçının zəhməti o zaman dəyərini itirir ki onun fəaliyyət tərəzisinin siyasi məqsədlər gözü həqiqəti axtaran xalis elmi araşdırma gözünü ağrı bassın. Hər bir insan dialoqu özünün bir

nömrəli işinə çevirməlidir. Hər bir münasibətdə fəaliyyətlərdə dini mərasimlərdə siyasi təşəbbüslərdə dialoqa əhəmiyyət verilməlidir. Ümumi bəşəri dəyərlər ortaq problemlər, savadsızlıq, xəstəliklər, irqi ayrı-seçkilik köləlik bəşəri tərəqqi, yer üzünün abadlığı, insan haqqları, azlıqlar, qadın, uşaq problemləri dinlər və mədəniyyətlərin birgə fəaliyyətini zəruri edir. Dialoqa tərbiyəvi metodoloji hazırlıq xüsusi proqramlar vasitəsi ilə dialoq mütəxəssisinin yetişdirilməsi olduqca əhəmiyyətlidir. Odur ki metodları dözümsüzlük, nifrət və zorakılıq elementlərindən təmizləmək tələb olunur. Həmçinin əcnəbi dil və ədəbiyyatların öyrənilməsinə şərait yaradılması lazımdır. Dünyanın bəzi böyük liderləri və mütəfəkkilləri dialoqun başlıca prinsip və məqsədləri haqqında müştərək mövqedən çıxış edir və onun fəlsəfəsini yaratmağa cəhd göstərirlər. Onlar bəşəri müştərəkliyə əhəmiyyət verir, insanların birgə yaşayışına və ortaq ümumdünya mədəniyyəti bazasının yaradılmasına rəvac vermək üçün yollar axtarırlar.

Sonunda ərz edək ki, biz də bu əsrlər boyunca uzanan həmin dialoqun bəhrə verməsi naminə öz kiçik töhvəmizi verməyə cəhd göstərdik.

TƏK BİR O yar və yardımçımız olsun!

MÜNDƏRİCAT

Tək Bir O 3

Qalib Sultanlar qəzeti 17

Qələbə 23

Sülhsevər Liderlərin Vəzifələri 29

Gözəl xasiyyətlərin bəziləri 29

Qalib Sultanlar necə olmalıdırlar /…Və Tək Bir O-nun izniylə Belə olacaqlar - inşaallah! 30

Tək Bir O-nun dostlarının mübarək sözlərindən 31

Dünya lider axtarışındadır 35

Niyyətin hara – Məhəbbət Mülkünün Sultanları Sarayı - mənzilin ora 35

Layihə təklifi forması 39

Hər kəs dialoqdan danışır 44

Bütün gözəl sözlər Yaradana məxsusdur 50

Tanrını, Sevgini, İnsani və Kainati sirr kimi qəbul et 53

Müzəffər formulu 60

İdeal cədvəl 62

Axmağın cənnəti – Ağıllı üçün cəhənnəmdir 63

Türkiye Cumhuriyeti Cumhurbaşkanı
Sayın Abdullah Gül 70

Azərbaycan Respublikasının Prezidenti, Zati-Aliləri
cənab İlham Əliyevə 74

Ssenarist Əlikram Müzəffərin "Odla suyun öpüşdüyü
ölkənin uşaqlarının dünyaya mesajı: Bu dünyanı
dəyişməyə gəlmişik!" layihəsinə Rəy 77

Müsahibə 79

Fondun himni 81

Tək Bir O-na inananlarin aləmi 85

Yaradılan! Yaradanın Yaratdığını Yaşat!... 91

İnsanlara ünvanlanmış daxili dini xitab tərzinin
təkmilləşdirilməsi. 94

PAROL TƏK BİR O!

Yığılmağa verilmişdir: 14.01.2014

Çapa imzalanmışdır: 03.02.2014

Nəşrin ölçüsü: 60x90 1/16.

Fiziki çap vərəqi: 6

Sifariş: 000/14. Sayı: 500 ədəd.